

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azad torpaqlarımız: Hadruta yeni həyat gəlir...




11

SƏS
№ 185 (7110)
9 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan - Rusiya münasibətlərində dinamik inkişaf mərhələsi



2

**Prezident İham Əliyev:"Azərbaycan ilə Rusiya arasında nəzərdə tutulan layihələr daimi diqqət və nəzarət tələb edir"**

# Cənubi Qafqaz uğrunda təzyiqlər, yaxud MƏNASIZ CƏHDLƏR




7

## 44 günlük müharibə: Ermənistanın terrorçuluq əməlləri




5

## "Amnesty İnternational" və "Human Rights Watch" özlərini ifşa edirlər

AMNESTY INTERNATIONAL | HUMAN RIGHTS WATCH | FREEDOM HOUSE

6

## Yox olan peşələr: poçtalyonlar



10

## Bu il magistratura imtahanları necə olacaq?



13

## Müqəddəsliyini itirən çörək



6

# Azərbaycan - Rusiya
## münasibətlərində dinamik inkişaf mərhələsi

### Prezident İham Əliyev:"Azərbaycan ilə Rusiya arasında nəzərdə tutulan layihələr daimi diqqət və nəzarət tələb edir"

Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr, vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 7-də Rusiya Federasiyasına səfəri qarşılıqlı münasibətlərin yüksələn bir xətlə inkişafda olduğunu göstərir. "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin dinamikası Prezident Vladimir Putinin Bakıya dövlət səfərindən sonra kifayət qədər nəzərə çarpır". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə görüşdə bildirib. Dövlətimizin başçısı qeyd edib:"Müxtəlif strukturların nümayəndələri səviyyəsində avqust ayında Bakıda əldə olunmuş qərarların tamamlanması çərçivəsində hökumət üzvləri arasında artıq çoxlu təmaslar olub".





Xatırlatmaq yerinə düşər ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqavilə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannamə və s. bu əlaqələrin təməlinin möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə ki, ikitərəfli münasibətlər Rusiya Federasiyasının və Azərbaycan Respublikasının xalqlarının maraqlarına tam şəkildə cavab verir, regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsinə töhfə verir. Dövlətlərarası siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Müstəqillik dövründə iki ölkə arasında mövcud olan münasibətləri qoruyub saxlayaraq keyfiyyət və mahiyyətcə yeni səviyyəyə çıxarmaq mümkün olmuşdur. Bu gün Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və əməkdaşlığın bütün sahələrini, o cümlədən siyasi, iqtisadi-ticarət, sosial, mədəniyyət, humanitar, təhsil istiqamətləri nəzərdə tutur, eyni zamanda böyük həcmdə hərbi-texniki əməkdaşlığı əhatə edir.

**"AVQUST AYINDA BAKIDA NƏZƏRDƏ TUTDUQLARIMIZ ƏLBƏTTƏ Kİ, BİZİM DAİMİ DİQQƏT VƏ NƏZARƏTİMİZİ TƏLƏB EDİR"**

Dövlətimizin başçısının Rusiyaya ardıcıl rəsmi səfərləri Azərbaycanın şimal qonşusuzla dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına verdiyi önəmi təsdiqləyir. "Azərbaycan ilə Rusiya arasında nəzərdə tutulan layihələr daimi diqqət və nəzarət tələb edir", - deyən Prezident bildirib ki, gündəliyimiz kifayət qədər genişdir və layihələr, xüsusilə avqust ayında Bakıda nəzərdə tutduqlarımız əlbəttə ki, bizim daimi diqqət və nəzarətimizi tələb edir. Prezident İlham Əliyev vurğulayıb ki, Vladimir Putinlə görüş gündəliyə nəzər salmaq və iki ölkə arasında əldə olunmuş həmin razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün daha bir yaxşı fürsətdir.

Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri çərçivəsində ikitərəfli gündəlik nəzərdən keçirilərək, qarşılıqlı fəaliyyətin əsas tərəfləri müzakirə olunub. Dövlətlərarası imzalanmış sənədlərin hər iki ölkənin prezidentlərinin iştirakı ilə mübadiləsi mərasimi keçirilib. Heç şübhəsiz ki, qəbul edilən sənədlər, prezidentlərin Birgə Bəyanatı münasibətlərimizin dostluq və müttəfiqlik xarakterinin ifadəsidir.

Qeyd edək ki, Moskvada "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması iki dövlət arasında münasibətlərin daha da dərinləşməsi, bir-birinin maraqlarının qarşılıqlı hörmət təməlləri üzərində qurulması baxımından əhəmiyyətlidir. Bəyannamə Rusiya ilə Azərbaycan arasında rəsmi diplomatik əlaqələrin 30 illiyinin tamam olduğu ildə imzalandı. Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxışında dövlətimizin başçısının bildirdiyi kimi, 2022-ci ilin fevralında imzalanmış qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamənin müddəaları uğurla həyata keçirilir. İki ölkə arasında tarixi əlaqələrin genişlənməsi siyasi, iqtisadi, sosial, humanitar, mədəni sahələrdə münasibətlərin dərinşməsində özünü göstərir. Əlbəttə ki, ikitərəfli münasibətlər Rusiya və Azərbaycan xalqlarının maraqlarına uyğundur, regional və beynəlxalq təhlükəsizliyin, sabitliyin təmin edilməsinə və möhkəmləndirilməsinə töhfə verir. Heç şübhəsiz ki, Moskva Bəyannaməsi əlaqələrin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırmağa imkanlar açıb. Sənəd tərəflər arasında bir çox sahələrdə, o cümlədən hərbi-siyasi sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə təkandır. Azərbaycan və Rusiya arasında imzalanan Moskva bəyannaməsi Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında əməkdaşlığın möhkəmləndirilməsinə töhfədir.

Bütün bu və ya digər məsələlərlə yanaşı, energetika sferasında - həm neft-qaz sektorunda, həm də elektrik enerjisi sahəsində vəziyyət, Xəzərdə ekoloji vəziyyət və digər məsələlərə nəzər salınıb, regional təhlükəsizlik müzakirə olunub, Azərbaycan - Rusiya əlaqələrində söz açarkən humanitar sahədə əldə olunan nailiyyətləri də qeyd etməliyik. Azərbaycanda rus ədəbiyyatına və mədəniyyətinə böyük maraq var. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb və 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı və Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları açılıb.

Ardı Səh. 3

# Azərbaycan - Rusiya
## münasibətlərində dinamik inkişaf mərhələsi

**Prezident İham Əliyev:"Azərbaycan ilə Rusiya arasında nəzərdə tutulan layihələr daimi diqqət və nəzarət tələb edir"**









Əvvəli Səh. 2

Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Azərbaycanda ali məktəblərin rus bölməsində 15 mindən çox tələbə təhsil alır və rus dilində təhsilə maraq artır. Hər iki dövlətin liderlərinin imzaladığı bəyannamə tərəflər arasında bir çox sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinə təkandır.

### "ƏMTƏƏ DÖVRİYYƏSİ 4 DƏFƏDƏN ÇOX - 4,3 MİLYARD DOLLARDIR"

Azərbaycan - Rusiya birgə fəaliyyətləri istiqamətində Azərbaycan iqtisadiyyatına dörd milyarddan artıq birbaşa investisiyalar qoyulub. Azərbaycanda Rusiya kapitalı ilə 1270 müəssisə fəaliyyət göstərir.

Siyasi münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə də müsbət təsirini göstərir. Xüsusilə ölkələrimiz arasında yüksək səviyyəli qarşılıqlı səfərlər, 260 sənədi əhatə edən geniş hüquqi baza və mütəmadi qaydada keçirilən iqtisadi forum və konfranslar ikitərəfli münasibətlərin inkişafında həlledici rol oynayır. Görülən tədbirlər nəticəsində Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilib. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub. Ölkələrimizi və tərəfdaşlarımızı birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi yük daşımalarının təhlükəsizliyi baxımından və bir çox ölkələr arasında ticari münasibətləri stimullaşdırmaq üçün qlobal əhəmiyyətə malikdir. "Rusiya ilə Azərbaycan arasında münasibətlər müsbət inkişaf edir. Dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox - 4,3 milyard dollardır, bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur, energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var". Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə bildirib.

Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb. Azərbaycan Prezidentinin Rusiyaya səfəri ölkələrimiz arasında münasibətlərin inkişafına yeni və mühüm töhfə verəcək.

Dünən həmçinin Moskvada MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib.

"Hörmətli həmkarlar. Vladimir Vladimiroviç, əvvəlcə, Sizi doğum gününüz münasibətilə bir daha təbrik etmək və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Rusiyanın dost xalqına isə yeni uğurlar və nailiyyətlər arzulamaq istərdim. Rusiya Federasiyasının Prezidentinin Azərbaycana bu yaxınlardakı dövlət səfəri Rusiya-Azərbaycan münasibətlərinin müttəfiqlik xarakterini bir daha təsdiq etdi. Əminəm ki, əldə olunmuş razılaşmaların həyata keçirilməsi gələcəkdə münasibətlərimizin ardıcıl inkişafı işinə xidmət edəcək. Fürsətdən istifadə edərək, Emoməli Şərifoviç Rəhmona Tacikistan Respublikasının növbəti il MDB-də sədrliyində uğurlar arzulamaq və keçmiş doğum günü münasibətilə bir daha təbrik etmək istərdim.

MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur rayonunun Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb.

Növbəti il Azərbaycanda III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək. Fürsətdən istifadə edərək, Belarusu II MDB Oyunlarını uğurla keçirməsi münasibətilə təbrik etmək istərdim. Belaruslu dostlarımızın və qardaşlarımızın təcrübəsi bu mühüm idman tədbirinə hazırlıqda və onun keçirilməsində bizim üçün çox faydalı olacaq.

Bir aydan sonra Bakı ən böyük beynəlxalq tədbirə - COP29 iqlim konfransına ev sahibliyi edəcək. Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi qiymətləndiririk.

Hörmətli həmkarlar, bu gün MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti qəbul ediləcək. Azərbaycan ümumi qələbəmizə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur "Katyuşalar", "Yak-3" qırıcıları istehsal edilirdi.

Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ilin martında həmçinin Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri and içdilər və Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə Bayrağını Brandenburq darvazası üzərinə sancdılar.

Bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək."

***Nəzakət ƏLƏDDİNQIZI***



## "Nankorluq ABŞ-ın Azərbaycana qarşı sanksiyaları kontekstində onunla bağlı istifadə olunacaq ən sərt söz deyil"

Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalına müsahibəsində ABŞ-ın Azərbaycana qarşı sanksiyalar siyasətini tənqid edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı 1992-ci ildə Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin Ermənistanı blokadada saxlaması barədə qondarma ittihamla Azərbaycana qarşı sanksiyaların tətbiq edildiyini diqqətə çatdıraraq deyib:

"Bu sanksiyalar 2001-ci ildə ABŞ-ın öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit yolla daşımalı olduğu vaxt aradan qaldırılıb. Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil".

Dövlətimizin başçısı daha sonra bildirib ki, sanksiya siyasətinin, ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusən də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə. Dövlətimizin başçısı vurğulayıb: "Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik".

# MÜDRİK LİDER, BÖYÜK STRATEQ, QALİB SƏRKƏRDƏ!



Azərbaycan Prezidenti İlham Əliyev son 21 ildə xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirərək, xalqın Liderinə, Sərkərdəsinə çevrildi. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə böyük inam və əminlik yaradır. Dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoydu. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərək bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu.

Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar yerinə yetirilib. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Odur ki, xalqımız 2003-cü il oktyabrın 15-də, 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də və 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi.

## 9 OKTYABR 2013-CÜ İL - GÜCLÜ XALQ, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER VƏHDƏTİ

2013-cü il oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri ölkəmizin tarixinə mühüm hadisə kimi düşdü. Ölkə vətəndaşlarının səsvermədəki fəallığı seçkiləri müşahidə edən xarici ekspertlərin diqqətindən yayınmadı. Müşahidəçilərin hamısı bu amili yüksək qiymətləndirərək son illərdə ölkəmizdə demokratik proseslərin uğurla getdiyini, prezident seçkilərinin azad və şəffaf keçirildiyini bildirdilər.

Azərbaycan vətəndaşları 2013-cü ildə yenidən öz səslərini İlham Əliyevə verdilər. Əslində, Azərbaycan xalqı bu növbəti seçkidə son 10 ildə qazanılan böyük nailiyyətlərə, sürətli inkişafa və qazanılan uğurların davam etdirilməsinə səs verdi. Çünki Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmləndi, ölkəmizin dünyadakı nüfuzu artdı. Dövlətimizin başçısının uğurlu fəaliyyət modeli bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olundu. Həyata keçirilən qlobal və regional layihələr ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirdi. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrildi.

Azərbaycan dünyada güclü və nüfuzlu dövlət və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir. Tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

## BÖYÜK SİYASİ VƏ DİPLOMATİK QƏLƏBƏMİZ

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmayıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Cənab Prezident "Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu, bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur", - deyə bildirmişdir.

## "ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN SİYASƏTİN MƏRKƏZİNDƏ, MƏHZ AZƏRBAYCAN VƏTƏNDAŞLARI, ONLARIN MARAQLARI DAYANIR"

Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində, bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu. Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də, kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu.

## ƏN YENİ TARİXİMİZİN ZƏFƏR SƏRKƏRDƏSİ

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb oldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilib. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayiş etdirdi. Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi və silahlı qüvvələrinin Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsi sahəsində Prezident İlham Əliyevin rəhbərliyi altında böyük işlər görülüb. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını 44 günlük Vətən müharibəsində erməni işğalı altında olan əraziləri azad edərək əzəli torpaqlarımızda dalğalandırdı. Gənc, müstəqil dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi, məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində Zəfər qazandıq. Ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 il müddətində davam edən işğala cəmi 44 gün müddətində son qoymağı bacardı, Ermənistanı diz çökdürdü, təslim olmağa məhkum etdi. Və Ali Baş Komandan İlham Əliyev ən yeni tariximizə Zəfər sərkərdəsi kimi öz möhrünü vurdu.

## "VERDİYİM BÜTÜN VƏDLƏR, QARŞIMA QOYDUĞUM BÜTÜN VƏZİFƏLƏR İCRA EDİLDİ"

2024-cü il fevralın 7-də Azərbaycanda şəffaf şəkildə keçirilən növbədənkənar Zəfər seçkiləri ölkənin demokratik inkişaf tarixinə daha bir uğur səhifəsini yazdı. Müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa edən bütöv Azərbaycanda keçirilən seçkilər hər bir azərbaycanlını qürurlandırdı. Azərbaycan yeni dövrə qədəm qoydu. Təsadüfi deyil ki, Cənab İlham Əliyev MSK-nın yekun protokoluna əsasən, 92,12 faiz səslə yenidən prezident seçkilərində qalib gəldi. Yeni dövrün başlanğıcı kimi dəyərləndirilən bu seçkilər ölkəmizin qarşısında yeni imkanlar yaradır. 30 illik torpaq həsrətinə son qoyan tarixi Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır.

Suverenliyimizi bərpa edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin Üçrəngli Bayrağımızı Xankəndi şəhərində ucaltdıqdan sonra xalqa müraciətində bildirdiyi fikirləri xatırlatmaq yerinə düşərdi. Cənab İlham Əliyev bildirmişdir ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat bu müqəddəs məqsədə doğru getdik".

Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib. Bu gün Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirildi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkünlər yurdlarında seçici olaraq səs verdilər. Bu da daha bir tarixi hadisəyə çevrildi. Qarşıda Azərbaycanı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yeni nailiyyətlər və yeni qələbələr gözləyir.

***Zümrüd BAYRAMOVA***

# 44 günlük müharibə: Ermənistanın terrorçuluq əməlləri

## Prezident İlham Əliyev: "Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz"

2020-ci ilin oktyabr ayında cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən bir neçə dəfə ayrı-ayrı zamanlarda bombalanması erməni vəhşiliyinin bir nümunəsi olaraq dünya ictimaiyyətinin gözü qarşısında baş verdi. Gəncəyə ilk hücum 4 oktyabrda baş verdi və 1 mülki şəxs Əliyev Tunar Qoşqar oğlu şəhid oldu, 30-dan çox mülki şəxs yaralandı. Bu raket hücumu müharibənin getdiyi ərazidən kənarda edilən ilk ciddi hücum idi. Qeyd edək ki, birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri vuruldu. Daha sonra Gəncə bir daha raket hücumuna 5 oktyabrda məruz qaldı. Hücum nəticəsində 3 mülki şəxs yaralandı. Üçüncü raket hücumu oktyabrın 8-də oldu. Bu gecə saatlarında Gəncəyə endirilən ilk raket zərbəsi idi. Nəticədə ölən və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi, həlak olan və yaralanan olmadı. Düşmənin silahlı qüvvələrinin növbəti dəfə 11 oktyabr tarixində gecə saat 02 radələrində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı. Çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Ermənistan silahlı qüvvələri "Toçka-U" raket sistemindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı məntəqəni atəşə tutdu.




"Müharibə dövründə kimin kim olduğunu, kimin vicdanlı döyüş apardığını və kimin yatmış şəhərlərə alçaqcasına hücum etdiyini hamı gördü. Özü də ən maraqlısı budur ki, gecə vaxtı Gəncənin yaşayış məhəlləsinə, yatan insanlara və uşaqlara operativ-taktiki raket zərbələri endiriləndən sonra Ermənistan rəhbərliyi bəyan etdi ki, onların bu məsələyə heç bir aidiyyəti yoxdur. Bilirsiniz, bu, ifrat həyasızlıqdır. Bəs kim edib? Biz özümüz vurmuşuq?" Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibələrinin birində bildirmişdir. Gəncə terroru bir daha erməni xislətini ortaya qoymuş oldu. Azərbaycan Ordusunun əks-hücumu nəticəsində başını itirən Ermənistan mülki obyektləri hədəfə almaqla acizliyini göstərdi. Suqovuşan və işğaldan azad edilən digər ərazilərimizin, xüsusilə Arazboyu, tarixi Xudafərin körpüsünün yerləşdiyi strateji əhəmiyyətli Cəbrayıl şəhərinin azad edilməsi onlarda vahimə hissini daha da artımış olurdu. Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da oldu. Onlar döyüş meydanında məğlubiyyətin acığını çıxmağa çalışırdılar.




### UŞAQ, QOCA, QADIN TERRORA MƏRUZ QALDI

Ermənilər tarix boyu belə təcavüzkarlıq etmiş, terror aktları törətmişdilər. Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. 1992-ci il fevralın 25-dən 26 - na keçən gecə - Xocalı soyqırımı xalqımızın növbəti faciəsinin yaşadığı bir tarixdir. Yeddi min əhalisi olan Xocalı erməni terrorçu qrupları keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibində olan 366-cı alıyının köməyi ilə müxtəlif növ silahlardan atəşə tutularaq yerlə-yeksan edilmişdir. Qəddarcasına həyata keçirilmiş terror əməliyyatı nəticəsində 613 nəfər şəhid olmuş, onlardan 56-sı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 487 nəfər ağır yaralanmış 1430 nəfər əsir götürülərək, amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır. 44 günlük Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini bir daha göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Eləcə də, Bərdədə də yaşanılan hadisələr də ermənilərin faşist əməllərini təsdiqlədi. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlər törətdilər. Bütün bunların planı əvvəldən hazırlanmışdır. "Hərbi cinayətlər üzrə beynəlxalq tribunal kifayət qədər siyasiləşdirilmiş, ikili standartlara, fərqli yanaşmalara əsaslanan təsisatdır və son illərin hadisələri bunu dəfələrlə sübut edib", - bildirən Cənab Prezident qeyd edib ki, Ermənistanın Qərbdə mövcud olan bu cür lobbist potensialı, Ermənistanın bir sıra Qərb ölkələri ilə xüsusi münasibətləri nəzərə alınmaqla, tam səmimi deyirəm, bizim buna nail olacağımıza ümid etmək çətindir: "Hətta buna nail olsaq belə, onun Azərbaycana qara yaxmaq üçün növbəti vasitəyə çevrilməyəcəyinə, ədalətli məhkəmə olacağına zəmanət yoxdur. Lakin bununla bərabər, əlbəttə, müharibə dövründə törədilmiş hərbi cinayətlərlə bağlı bütün faktlar sənədləşdirilib və təbii ki, biz hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün ciddi hüquqi tədbirlər görəcəyik".



### "DÖYÜŞ MEYDANINDA DA, BEYNƏLXALQ MÜSTƏVİDƏ DƏ, SİYASİ MEYDANLARDA DA BİZ QALİB GƏLİRİK"

İşğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və mülki əhalini hədəfə almaqla 2020-ci ilin oktyabrın 9-da saat 14 radələrindən başlayaraq, Ağdam rayonunun Quzanlı qəsəbəsini müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nətcəsində Quzanlı qəsəbə sakinləri 1979-cu il təvəllüdlü Hüseynov Əlizamin Cavid oğlu, 1978-ci il təvəllüdlü Zeynalov Elçin Əli oğlu, 1984-cü il təvəllüdlü Məmmədova Lalə Məhəmməd qızı və 1992-ci il təvəllüdlü Rzayev Elçin Hənifə oğlu qəsəbə ərazisinə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldılar.

Bütün törədilən bu və ya digər əməllərə baxmayaraq, Azərbaycan haqq işində israrlı idi. "Bu gün bütün cəbhə boyu döyüşlər gedir. Bütün istiqamətlər üzrə Azərbaycan mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də odur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər. Bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə istəyirsən yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz. Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq. Ərazi bötüvlüyümüzü bərpa edəcəyik", - deyə Azərbaycan Prezidenti İlham Əliyev 9 oktyabr 2020-ci il tarixində xalqa müraciətində bildirmişdir.

### "MÜHARİBƏ BİR DAHA GÖSTƏRDİ KİM KİMDİR"

2020-ci ilin 8 noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi yadda qaldı. Cənab Prezidentin bildirdiyi kimi, "Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu".

Qalibiyyətimizin rəmzi olaraq 2020-ci il 10 dekabr tarixində keçirilən möhtəşəm Zəfər paradı müzəffər Azərbaycan Ordusunun gücünü və qürurunu bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi, yenilməz xalq olduğumuzu göstərdi. Dövlət başçısının bildirdiyi kimi, "Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir". "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı.

Dövlət başçısı çıxışlarının birində bildirib ki, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Cənab Prezidentin bildirdiyi kimi, "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur".

İşğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verildi. Əlbəttə ki, həyata keçirilən genişmiqyaslı layihələr deməyə əsas verir ki, işğaldan azad olunan bütün ərazilərimizdə dini-mədəniyyət abidələrimiz, dağıdılmış infrastruktur yenidən qurulur, bərpa və təmir olunur.

Bu gün regionda yeni reallıqlar yaratmış Azərbaycan Qarabağda böyük abadlıq-quruculuq işləri həyata keçirir. Faşist ideologiyalı Ermənistan Qarabağdakı bütün infrastrukturu, tarixi, dini və mədəni abidələri, yaşayış binalarını və evlərini darmadağın edib. Bu gün Böyük Qayıdışın ilk ünvanı olan Ağalı kəndində həyat qaynayır. Füzulidə, Zəngilanda, Şuşada, Laçında irimiqyaslı layihələrin reallaşması nəticəsində əzəli sakinlər tarixi torpaqlarımızda yurd salırlar.

***Zümrüd BAYRAMOVA***

# "Amnesty İnternational" və "Human Rights Watch" özlərini ifşa edirlər

## Görən bu təşkilatlar Virciniya ştatında jurnalist Alison Parkerin və fotoqraf Adam Vardun canlı yayım zamanı güllələnərək qətlə yetirilməsinə niyə münasibət bildirmirlər?

Dünya miqyasında böyük rəğbət göstərilən, hörmət nümayiş etdirilən dövlətlərdən biri də Azərbaycandır. Ölkəmiz bu dəyəri dövlət başçının apardığı ciddi, əsaslı siyasəti və Azərbaycan xalqının nəcib xalq olması ilə qazanıb. Məhz bu kimi mövqeyi səbəbi ilə əlaqədar olaraq əksər dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanla iki və çoxtərəfli əməkdaşlıq əlaqələri qurmağa can atırlar. Eyni zamanda dünya birliyi beynəlxalq miqyaslı konfransların, tədbirlərin sabitlik adası kimi özünü tanıtdırıb qəbul etdirməyi bacaran Azərbaycanda keçirilməsini istəyirlər. COP29 konfransının Azərbaycanda keçirilməsi məhz beynəlxalq aləmin ölkəmizə böyük dəyərinin və hörmətinin nümunəsidir. Təbii ki, belə bir mötəbər bir tədbirin Azərbaycana etibar edilməsi uzun illərdir ölkəmizin həyata keçirdiyi uğurlu xarici və daxili siyasətin məntiqi nəticəsidir. Söz yox ki, Azərbaycan bu tədbirin uğurla başa çatmasına nail olacaq. Bu əminliyi yaradan Azərbaycanın yüksək təcrübəyə və geniş imkanlara malik olmasıdır. Təəssüflər olsun ki, bəzi üzdəniraq dövlətlər və qüvvələr Azərbaycanda COP29 konfransının keçirilməsindən istifadə edərək müxtəlif formalarda ölkəmizə təzyiq göstərməyə və öz məkrli niyyətlərini həyata keçirməyə cəhdlər göstərirlər. İrəli sürülən iddialar isə insan hüquqlarının müdafiəsi, ətraf mühitin qorunması sahəsində problemlərin olması göstərilir. Bu yerdə yaxşı deyiblər, "öz gözündə tiri görmür başqasının gözündə tükü seçir". Özlərində insan hüquqları sahəsində ciddi problemlər var, addımbaşı insanlar təqib olunur, döyülür, söyülür, zindanlara atılır, bizim kimi sivil, azad dövləti hədəf seçirlər.

### Texasda, Kaliforniyada separatizm baş qaldırsa, ABŞ Konqresinin və Senatının mövqeyi necə olar?

Fransa, Almaniya, Niderland və ABŞ-ın siyasi dairələri ilə yanaşı onların maliyyələşdirdikləri beynəlxalq təşkilat adına iddia edən qurumlarda xor dərnəyinin cükküldəyən bacarıqsız üzvləri kimi ağız-ağıza verib Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Gah Fransa Assambleyası, gah Almaniya Bundenstaqı 30 illik işğal dövründə Azərbaycanın yeraltı- yerüstü sərvətlərini talayan, minlərlə insanı qəddarcasına öldürən, 1 milyona yaxın insanın ev-eşiyindən didərgin salınmasında xüsusi rol oynayan və 23 saat 44 dəqiqəlik antiterror əməliyyatları zamanı həbs edilərək istintaqa təhvil verilən erməni separatçılarının azad edilməsi barədə absurd çağırışlar edir, qətnamələr qəbul edirlər. Bu günlər isə erməni lobbisinin əsas simalarından olan ABŞ-ın 43 Senatoru dövlət katibi Blinkerə müraciət edərək COP29 konfransını əsas gətirərək Azərbaycan qarşı separatçı qərarların qəbul edilib, addımlar atılmasını xahiş ediblər. Senatorların bu cür separatçı addımları Azərbaycanın işğal edilən ərazilərində vandalizm aktları törədən terrorçularla onların həmfikir olmasına şübhələr yaradır. Çünki terrorçu dağıdırsa və böyük partlayışlar həyata keçirsə, onların bu əməlləri pislənilməlidir, dəstək verilirsə deməli elə terrorçuların sırasındadırlar və onlarla eyni əqidə sahibləridir. Sual olunur, əgər Texasda, Kaliforniyada və digər ştatlarda terror aktları yolu ilə rəsmi Vaşinqitondan ayrılmaq yolu tutulularsa ABŞ Konqresinin və Senatının mövqeyi necə ola bilər? Heç şübhəsiz ki, erməni terrorçularının Bakıda təcridxanaya salınmasına görə, qara geyinib, qara-qura fikirlər söyləyən senatorlar Texasda və Kaliforniyada azadlıq mübarizəsi adı altında ayağa qalxıb, iğtişaşlar törədən, dinc insanları öldürənlərin cəzalandırılması üçün orduya çağırışlar edər, prezident qarşısında tələb irəli sürərlər. Elə isə Azərbaycanda erməni terroruna niyə dəstək verirlər? Özləri erməni terroruna dəstək verməklə kifayətlənməyib maliyyələşdirdikləri və bununla da özlərindən asılı vəziyyətə saldıqları "Amnesty İnternational" və "Human Rights Watch" kimi qondarma təşkilatları da Azərbaycana qarşı qarayaxma kampaniyası aparmağa məcbur edirlər "Amnesty İnternational" və "Human Rights Watch" oxşar tezislərlə çıxış etməklə özlərini ifşa etmiş olurlar. Onların COP29 ərəfəsi nümayiş etdirdikləri şər və böhtanlar bir daha hansı məqsədlərə xidmət etdiklərini təsdiqlədilər.

### "Amnesty International" və "Human Rights Watch" ənənəvi riyakarlıqlarından əl çəkmirlər

"Amnesty International" və "Human Rights Watch" "insan hüquqlarının müdafiəçisi" rolunda çıxış etdiklərini bəyan etsələr də, əslində, siyasi sifarişlər yerinə yetirirlər. Doğrudan da əgər bitərəf və insan hüquqlarının müdafiəsinə önəm verən təşkilatlardılarsa, Fransa da "Sarı jiletlilər"in aksiyası zamanı yüzlərlə insan Makronun zorakılığı ilə üzləşdi, çoxsaylı aksiya iştirakçısı öldürüldü, şikəst edildi, nədən bu təşkilatlar etiraz açıqlaması ilə etmədilər? Avqustun 26-da ABŞ-ın Virciniya ştatında ştatında WDBJ7 televiziyasının əməkdaşları olan jurnalist, 24 yaşlı reportyor Alison Parker və 27 yaşlı fotoqraf Adam Vard canlı yayım zamanı güllələnərək, qətlə yetirildilər. Söz və mətbuat azadlığından moizələr söyləyən, məlumatlar paylaşan "Amnesty International" və "Human Rights Watch" jurnalistlərin canlı efir zamanı öldürülmələrinin üstündə sükutla keçdi. Hər gün ABŞ-ın, Fransanın və Almaniyanın terror maşının zərbələri nəticəsində müxtəlif münaqişə bölgələrində yüzlərlə insan öldürülür, girov götürülərək işgəncələrə məruz qalırlar "Amnesty International" və "Human Rights Watch" isə özlərinə kar və korla kimi aparırlar. Azərbaycana gələndə isə özlərini iti gözlü, tez eşidən şəxslər kimi göstərirlər. Belələrini ciddi qurum kimi yanaşmaq olmaz. Mövcud faktlara əsaslanmaqla Qərbi Azərbaycan İcması yaydığı bəyanatında "Amnesty International" və "Human Rights Watch"u məlum dairələrin əlində siyasi vasitə olduğunu qeyd edir: "COP29 yaxınlaşdıqca, anti-Azərbaycan qüvvələrinin ölkəmizə qarşı təzyiqləri və hücumları daha da güclənməkdədir. Amnesty International və Human Rights Watch təşkilatları bu gün səhər yaydıqları bəyanatda Azərbaycanın COP29-a ev sahibliyindən sui-istifadə edərək, ölkəmizə qarşı böhtanlar və əsassız tələblər irəli sürürlər.Bu bəyanatların eyni gündə yayımlanması və Azərbaycana qarşı son həftələrdə artan hücumların sözügedən hər iki təşkilata nəzarət edən vahid bir mərkəz tərəfindən idarə olunduğunu bir daha göstərir. Azərbaycanın öz suverenliyini bərpa etməsini həzm etməyən qüvvələrin siyasi motivli bu hücumları ölkəmizin beynəlxalq arenada qazandığı uğurlara kölgə salmaq və ölkəmizi nüfuzdan salmaq cəhdidir".

İcmanın yaydığı bəyanatında o da vurğulanır ki, Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarının qorunması ilə bağlı ötən ilin avqust ayında İcmamızın Amnesty International və Human Rights Watch-a göndərdiyi müraciətin cavabsız qalması bu təşkilatların insan hüquqları prinsiplərindən nə qədər uzaq olduğunu göstərir: "Bütün bunlar Amnesty International və Human Rights Watch-un məlum dairələrin əlində bir siyasi vasitə kimi çıxış etdiyini və Azərbaycana qarşı etnik və dini əsasda ayrı-seçkilik siyasəti apardığını sübut edir. Biz Amnesty International və Human Rights Watch-un anti-Azərbaycan mövqeyini, insan hüquqlarına zidd davranışlarını və irqi ayrı-seçkilik siyasətlərini kəskin şəkildə qınayır və onları bu yanlış əməllərdən əl çəkməyə çağırırıq".

***İLHAM ƏLİYEV***



# Müqəddəsliyini itirən çörək

**Elçin Bayramlı**

***Son vaxtlar çörəkdən şikayətlər daha da artıb. Artıq əksər çörəklər çox bərbad vəziyyətdədir. Bəs bunun səbəbləri nədir? Burada bir neçə ciddi səbəb var. Başdan başlayaq. Dünya bazarında 5 növ buğda var- 1, 2, 3-cü sortlar ərzaq buğdasıdır, 4 və 5 isə heyvandarlıq üçündür. Bizim idxalçılar ucuz olsun deyə 4-cü 5-ci sort buğda almağa üstünlük verirlər, amma ondan da normal çörək çıxmır. Ona görə də, burada kimya sənayesi köməyə gəlir. Xüsusi maddələr var ki, çörəyi sürətli mayalayır, köpürdür, ağardır və s., nəticədə çörəyə oxşayır.***

Məsələn, ağardıcı kimi tanınan titanium dioksid maddəsi var- E-171 kodu ilə bilinir. Bu çox çox zərərli maddədir, əksər ağ qida məhsullarında istifadə olunur- duz, şəkər, süd məhsulları, çörək və s. Bu maddə Avropada qadağan edilib, amma bizdə geniş istifadə olunur. Bundan əlavə, sürətli mayalandırma üçün tətbiq olunan ultrakimyəvi maddə olan mayadan istifadə olunur ki, bu da zərərlidir.

Bunlar çörəyin hazırlanması prosesində olan problemlərdir. Lakin əsas problem hələ buğdanın özündə, undadır. Unun saxlanması şərtlərinə də çox vaxt riayət olunmur, qurd düşür, bəzi anbarlarda siçan, siçovul qaynaşır. Tempratur və nəmişlik düzgün ətmin olunmadığından unda bakterilayar və göbələklər əmələ gəlir. Çörəklərin antisanitar vəziyyətdə saxlanması, daşınması da ayrı bir probemdir.

Buğda sortlarının çox böyük əksəriyyəti genetik modifikasiyaya məruz qoyulub, xromosomlarının sayı bir neçə dəfə artırlıb ki, bu da insanın gen strukturuna ciddi problem yaradır. Dədə-baba toxumlarında 14 xromosom var idisə, indi bu say gen texnologiyası vasitəsilə 48-də çatdırılıb. Bundan əlavə, son dövrlərdə dəb halına salınmış əla növ un və ondan hazırlanan məhsullar konkret olaraq şəkər və xərçəng xəstəliklərinə səbəb olur. Yapışqanlığı yüksək olan bu un mədədə parçalanmır, bağırsaqlarda sorulmur və çürüyərək bakteriyaların çoxalmasına səbəb olur. Çünki, buğdanın qidalı maddələrinin cəmlədiyi qabıq və orta hissə götürülür, yalnız özək hissəsindən əla növ un əldə olunur ki, bu da artıq qida sayıla bilməz. Çünki tamamilə nişastadır və heç bir faydalı, qidalı maddə yoxdur. Normal çörək və digər un məhsulları isə kəpəkli undan olmalıdır. Təəssüflə demək lazımdır ki, artıq təbii undan bişirilmiş təbii çörək yoxdur. Yalnız kəpəkli un alaraq evdə təbii maya ilə bişirilən çörəyi zərərsiz saymaq olar. Bunu da əhalinin heç 1 faizi edəcək deyil. İstəyən də o unları tapa bilməyəcək.

Sizə daha bir fakt açıqlayım, hansı ki mən 15 ildən çoxdur ki, bunun axırına çıxa bilməmişəm. Deməli, sanki naməlum bir qüvvə tərəfindən ölkədə əla növ undan başqa bütün un növlərinin satışı qadağan olunub. İnanmayanlar bütün mağazalara baxa bilərlər. Buğda emalında 4 sort un mövcuddur- əla növ, 1, 2, 3-cü sortlar. Son 3 sortun heç biri satışda yoxdur, halbuki, məhz bunlar faydalıdır, çünki kəpəklidir, əla növ ağ un isə glütenli nişastadır və zərərlidir. Mağaza rəflərində 40 növ un düzülüb, təsəvvür edin, 40-ı da əla növ. Bu necə ola bilər? Mən bunun səbəbini nə qədər araşdırdımsa, axırına çıxa bilmədim. İndi jurnalist istəyirəm bu sirri aşkara çıxara ki, niyə faydalı sort unların satışına imkan verilmir.

Taxıl Fondu yerli buğdamızı bəyənib götürmür ki yaramır, amma xaricdən gətirilən də ən aşağı, ən keyfiyyətsiz buğdadır. Sovet vaxtında Azərbaycan buğdası çörəyə də yarayırdı, torta da, şirniyyata da, makarona da, indi isə yaramır?

Məsələ təkcə çörəklə bağlı deyil, bütün qidalarda ciddi problemlər var və həll olunmalıdır. Bu səbəbdən də GMO toxumların idxalı, istehsalı, satışı və istifadəsini qadağan etmək lazımdır. Sosialist respublika vaxtında Azərbaycanın özünün çox məhsuldar buğda sortları yaradılmışdı, onları çoxaldıb əkmək lazımdır. Bizim Genetika İnstitutunda hamısı var.

GMO toxumlar isə repreduksiya vermir və hər il xaricdən toxum almaq məcburiyyətində qalırsan, nəticədə hansısa qlobal transkorporasiyadan asılı vəziyyətə düşürsən. GMO texnologiyası qlobal bir terror vasitəsidir və bundan özümüzü qorumalıyıq. Tək taxıl məhsullarında yox, bütün məhsullarda yerli təbii toxumların əkilib çoxaldılmasını təmin etməliyik.

Türkiyədə aparılan təcrübələr göstərdi ki, təbii buğda toxumu GMO toxuma nisbətən 2 dəfə daha çox məhsul verir, daha faydalıdır, daha dözümlüdür. Belə bir halda özümüzü qlobal qida terrorundan qorumalıyıq. GMO texnologiyası həm dövlət təhlükəsizliyi məsələsidir, həm milli təhlükəsizlik məsələsi. Qida təhlükəsizliyindən üstün heç bir məsələ yoxdur, ola da bilməz. Çünki bu birbaşa xalqımızın həyatı, sağlamlığı ilə bağlıdır.

# Cənubi Qafqaz uğrunda təzyiqlər, yaxud MƏNASIZ CƏHDLƏR

***ABŞ və Avropa Birliyi Cənubi Qafqaza mövqe əldə etməyin qətiyyən mümkün olmayacağından indi daha çox narahatdır. Hətta Ermənistan üzərindən belə nəyə isə nail ola bilməyəcəyini Qərb tam dəqiqliyi ilə anlamağa başlayıb və məhz çaşqınlıq içərisində olması da bu baxımdan anlaşılandır. Görünür, elə bütün bunlara görə də Qərb siyasi dairələri yenə də rəsmi Bakı ilə razılaşmaq yolunu deyil, sərt təzyiqə əl atmaq yolunu seçiblər, amma başa düşə bilmirlər ki, Azərbaycana hansısa bir şəkildə, ələlxüsus da təzyiq vasitəsi ilə təsir etmək mümkün deyil, cəhdlərinin də heç bir mənası yoxdur.***




## Region uğrunda Rusiyaya təsir etmək cəhdi kimi, Azərbaycana təzyiq cəhdi də fiasko deməkdir

Qərbin məhz Cənubi Qafqazda geosiyasi maraqlarının olduğu dəfələrlə öz təsdiqini tapıb və artıq aydın şəkildə görünür ki, ABŞ və Avropa Birliyi regionda mövqe əldə etmək üçün hər vasitəyə əl atmaqdadır. Çox güman ki, Rusiyanı müharibəyə sürükləmək özü də Qərb dairələrinin planlarının bir hissəsi olub. Ukrayna ilə müharibəyə vadar edilən Rusiyanın "başını savaşa qarışdırmaqla" Cənubi Qafqazdakı mövqelərini əlindən verəcəyinə böyük ümidlər bəslənildiyi çoxdan bəlli idi. Bəlli idi ki, Qərb rusları ukraynalılara qarşı qoymaqla, onların diqqətini yayındırmağa, bununla da Cənubi Qafqazdan uzaqlaşdırmağa çalışıb və Ukyayna müharibəsi ilə bağlı bir istəyi də məhz bundan ibarət olub. Sözsüz ki, istəyinə nə dərəcədə nail olduğu, daha doğrusu, nail ola bilmədiyi göz önündədir. Ola bilsin ki, rusların ermənilərlə münasibətlərinin gərginləşməsi fonunda ilk vaxtlar amerikalılar və avropalılar istəklərinin hasil olduğunu zənn ediblər, amma sonra bərk yanıldıqlarını da anlayıblar. Anlayıblar ki, ruslarla ermənilərin münasibətlərinin əvvəlki kimi, sovetlər dönəmində olduğu kimi olmaması heç də Rusiyanın regiondan uzaqlaşması demək deyil. Başa düşüblər ki, ruslar ermənilərə nə qədər nifrət etsələr belə, zərb məsəldə deyildiyi kimi, "birə görə köynək yandırmaq" niyyətində olmayıblar və regionu hansısa qaraçı, köçəri, xəyanətkar hay tayfasına görə itirməyi qəbul belə edən deyillər. Həqiqətən bu belədir və Kreml istənilən halda İrəvanın səhvlərinə, yanlışlıqlarına görə bölgədən əl çəkən, ələlxüsus da yerini Qərbə verən deyil.Ruslar çox yaxşı bilirlər ki, Cənubi Qafqaz regionundan uzaqlaşmaq, həmin regionu amerikalılara bağışlamaq deməkdir və bunu da Moskvanın qəbul etməsi qətiyyən mümkün deyil. Rəsmi Moskva birinci növbədə regionu ona görə nəzarətdən buraxmaq istəmir ki, oraya amerikalılar, Qərb oyunçuları girə bilməsinlər. Amerikalılar da yaxşı bilirlər ki, rusların Ermənistanı "çalxalamaq" üçün kifayət qədər rıçaqları var. Bilirlər ki, İrəvanı alt-üst etmək Kreml üçün qətiyyən çətin deyil və burunlarını soxduqları təqdirdə Ermənistan da qarışacaq, burunları da bərk əzişdiriləcək. Ona görə də Cənubi Qafqaz məsələsində Rusiyanı ən önəmli faktor olaraq qəbul etməkdədirlər və əllərini digər oyunlardan üzdüklərinə görə yenə də rəsmi Bakını hədəf olaraq seçiblər, təzyiq variantını gündəmə gətiriblər ki, bəlkə bununla nəyə isə nail ola biləlvalar. Amma bu taktikanı seçməkdə də bərk yanıldıqlarını öncədən başa düşməli idilər və bilməli idilər ki, Azərbaycanla təzyiq dili ilə danışmaq nə isə vəd etmir. Ən azından 44 günlük müharibə dönəmində rəsmi Bakının heç nəyə məhəl qoymadan, heç bir təzyiq və təhdidləri nəzərə belə almadan milli və dövlət maraqlarını üstün tutduğunu xatırlamaları yetərli idi ki, Azərbaycanla hansısa hədə, təhdid, təzyiq dili ilə danışmağın mənasız olduğunu anlasınlar. Bir sözlə, Rusiya ilə bağlı planlarının yanlış olduğunu anladıqları kimi, məhz Azərbaycanla bağlı da düşündüklərinin yanlışlıq olduğunu bilməli idilər. Daha dəqiq desək, region uğrunda Rusiyaya təsir etmək cəhdi kimi, Azərbaycana təzyiq cəhdi də fiasko deməkdir.

## Azərbaycanla əlaqələrin, əməkdaşlıqların daha da yaxşılaşdırılmasına olan marağın həzm olunmaması anlaşılandır

Doğrudur, ruslar daha ermənilərin "ipinin üstünə yük qoymaq" niyyətində, fikrində deyillər və onları kifayət qədər özlərindən uzaqlaşdırmaları fonunda regiondakı proseslərdə iştirak etməkdən məhrum olmalarından ehtiyat edirlər. Cənubi Qafqaz ilə birbaşa bağlantısının qalması üçün Azərbaycanla strateji tərəfdaşlığa Kremlin can atması bu baxımdan anlaşılandır. Yəni, məğlub Ermənistanla deyil, məhz qalib Azərbaycanla, regionda söz sahibi olan ölkə ilə əməkdaşlıqda maraqlı olmalarını başa düşmək üçün böyük ağıl sahibi olmaq lazım deyil. Ələlxüsus da, Cənubi Qafqazın şəriksiz geopolitik sahibinin məhz Azərbaycan olduğunu rəsmi Moskvanın qəbul etməsi fonunda Rusiyanın Azərbaycanla əlaqələri, əməkdaşlıqları daha da yaxşılaşdırmaq istəkləri və cəhdləri tamamilə məntiqidir. Əlbəttə ki, bunu nə Ermənistan tərəfinin, nə də Qərbin həzm edə bilməməsini başa düşmək də çətin deyil.Əvvələ, Rusiyanın Azərbaycanla daha yaxın münasibətlər qurmağa can atmasını İrəvan hər addımda ona görə qısqanclıqla qarşılayır ki, marginallaşmış, küncə qısılmış vəziyyətdə qalmaqda davam edəcəklərinin ermənilər fərqindədirlər. Qərb isə ona görə narahat olur ki, Rusiya və Azərbaycan olmaqla, iki qonşu ölkənin münasibətlərinin daha da yaxşılaşması fonunda Cənubi Qafqaza burun soxa bilməyəcəyini başa düşür. Onu da başa düşür ki, Cənubi Qafqazın şəriksiz geopolitik sahibi olan Azərbaycan günü-gündən inkişaf etdikcə, qonşu ölkələr, eləcə də dünya ölkələrinin əksəriyyəti rəsmi Bakı ilə daha da yaxşı münasibətlər qurmaqda davam etdikcə, Qərbin regiona soxulmaq şansı tamamilə sıfıra yaxınlaşır. Qısa şəkildə desək, Qərb artıq fərqindədir ki, Azərbaycanın regional mövqeləri maksimum həddə qədər güclənməkdədir və bu onların Cənubi Qafqazda özlərinə yer etmələrinə mane olur. Bu baxımdan da Azərbaycanın işlərinə burun soxmaq, aranı qarışdırmaq, müxtəlif bəhanələrlə müdaxilə etmək, hətta təzyiq etmək, təsir etmək kimi niyyətləri tamamilə anlaşılandır. Anlaşılmayan isə ABŞ kimi o yekəlikdə dövlətin, eləcə də Avropa Birliyinin bunun mənasız və nəticəsiz olmasını dərk etməməsi, gələcəkdə də, yenə də uğursuzluqla qarşılaşacaqlarını anlamamasıdır.

Erməni faktorundan əli üzülən Qərbin və Avropa Birliyinin təzyiq və təhdid yolu ilə nə isə əldə etmək cəhdi mənasızdır

Yaxşı bilirik ki, onillər boyunca erməni terrorundan, işğal faktının davam etməsindən istifadə edərək ABŞ, eləcə də Avropa Birliyi münaqişənin həllini bəhanə etməklə regiona burun soxub və hətta bölgəni qızışdırmaq üçün Ermənistana silah-sursat belə göndərmək şansını əlindən qaçırmayıb. İşğalçı ölkəyə hərbi dəstək verməklə, eləcə də maddi yardımlar ayırmaqla, terrorçuları həvəsləndirən Qərb, Avropa Birliyi regionda qarışıqlıq salmaq üçün əlindən gələni əsirgəməyib. Hələ də əsirgəmir. Çünki bulanıq suda balıq tutmaq niyyəti ilə yanaşır və sabitlik, stabillik qətiyyən nə Qərb dairələrinin, nə də Avropa Birliyinin belə görünür ki, maraq dairəsində olmayıb. Erməni faktoru isə hər zaman alət olaraq nəzərdə tutulub. Məsələ burasındadır ki, Azərbaycan 44 günlük müharibə ilə, eləcə də anti-terror tədbirləri ilə təkcə torpaqlarını işğaldan və işğalçılardan azad etmədi, eyni zamanda, həmin faktoru da aradan qaldırdı. Azərbaycan Ordusu ərazilərimizi silahlı erməni terror dəstələrindən, erməni separatçılarından təmizləməklə, Ermənistanı rüsvayçı məğlub duruma salmaqla, rəsmi İrəvanı kapitulyasiya sənədinə, təslimçilik aktına imza atmaq məcburiyyəti qarşısında qoymaqla, Amerikanın, Qərbin, Avropa Birliyinin məkrli planlarını pozdu. Artıq erməni faktoru Qərb üçün də, Avropa Birliyi üçün də əvvəlki kimi nəticə verəcək hesab olunmur. Deməli, rəsmi Bakı üçün nəzərdə tutulan təzyiq və təhdidlərin nəyə görə indi ortaya çıxması bu baxımdan tam şəkildə bəlli olur. Bəlli olur ki, erməni faktorundan əli üzülən Qərb və Avropa Birliyi Azərbaycana qarşı təzyiq və təhdid yolu ilə nə isə əldə etməyə çalışır. Amma rəsmi Bakının hansı həddə hazırlıqlı, ölkəmizin nə dərəcədə güclü və qüdrətli olması deyəsən nəzərə alınmır. Əks halda, Qərb də, elə Avropa Birliyi də hesabını çoxdan, gərək lap vaxtında qanardı. Amma görünür, bunu qandırmaq gərəkirmiş. Qandırmaq gərəkirmiş ki, həqiqətən də erməni faktorundan əli üzülən Qərbin və Avropa Birliyinin təzyiq və təhdid yolu ilə nə isə əldə etmək cəhdi mənasızdır...

***İnam Hacıyev***

# Əbədi müharibənin son bir ili...

## 12 aylıq döyüşdən sonra nə İsrail, nə də onun rəqibləri qələbəyə daha yaxın deyillər

***Bir il əvvəl, oktyabrın 7-də Qəzza zolağında fəaliyyət göstərən Həmas və bir neçə digər Fələstin təşkilatının döyüşçüləri uzun illər mövcud olan manea sistemini aşaraq İsrail ərazisinə daxil olublar. Sonra baş verənlər yəhudi dövlətinin indiyə qədər görmədiyi bir şey idi: yüzlərlə mülki şəxsin kütləvi, bəzən vəhşicəsinə qətlə yetirilməsi, Qəzza zolağına 300-dən çox girov götürülməsi və baş verən hər şeyin tam bir sürpriz kimi onlara gəldiyi təhlükəsizlik qüvvələrinin qısa müddətli çaşqınlığı. Aylarla, bəzi mənbələrə görə isə illərlə davam edən "Əl-Əqsa tufanı"na (HƏMAS-ın özü bu hücumu belə adlandırıb) hazırlıqlar sadəcə olaraq İsrail kəşfiyyat xidmətləri tərəfindən nəzərdən qaçırılmışdı.***



Ardınca axan qanların düşmən ərazisinə köçürülməsi və dünya ictimai rəyinin parçalanması oldu. Bəziləri üçün növbəti Yaxın Şərq müharibəsində əsas hadisə 7-8 oktyabr hadisələri oldu və buna görə də İsrail qurban oldu. Digərləri üçün bu iki günün dəhşətləri İsrailin Qəzza zolağının sonrakı bombalanması ilə müqayisədə ikinci dərəcəli oldu, qurbanlarının dəqiq sayı hələ məlum deyil. Buradakı parçalanma xətt üzrə getmir: ərəblər (daha geniş mənada qlobal cənub) - Qərb. İsrailin açıq və "utancaq" tərəfdarları və əleyhdarları birmənalı mövqelərini bəzi formasiyalarla gizlədərək özlərini ABŞ-da, Avropada, yeni olan isə müsəlman ölkələrində tapdılar. Son bir il ərzində Təl-Əvivə uçan İran pilotsuz təyyarələrini vuran iordaniyalı pilotlar və Fələstinlilərin soyqırımına görə İsraili məhkəməyə verməyə hazırlaşan irlandiyalı vəkillər var idi.

Yaxın Şərqdə baş verən hadisələr "Soyuq Müharibə"dən sonra dünyanın nə qədər mürəkkəbləşdiyini göstərdi. O zaman koalisiyaların yaradılması prinsipləri, "dost-düşmən" siyasi koordinatlar sistemi 30 il ərzində dəyişən reallığa uyğun gəlmir. Bu, xüsusilə ABŞ-da özünü büruzə verir. Amerikalılar arasında güclü Fələstin tərəfdarı əhval-ruhiyyənin olması israillilər üçün çox böyük və son dərəcə xoşagəlməz sürpriz oldu. Məlum olub ki, onların siyasətçiləri təkcə HƏMAS-ın hücumunu deyil, ABŞ-dakı nəsil dəyişikliyini də nəzərdən qaçırıblar. İndi yəhudi dövlətini ən yaxın müttəfiq kimi qəbul etməyən milyonlarla insan müxtəlif səbəblərdən - ideoloji mənşəyindən tutmuş digər fərqliliklərə qədər mənşəyinə görə (ABŞ-da müsəlman Şərqi ölkələrindən gələn mühacirlərin sayı getdikcə artır) yaşayır. İndiki Ağ Ev administrasiyası da bunu nəzərə almalıdır. Yaxın Şərq məsələsində o, Demokratlardan prezidentliyə namizəd Kamala Harrisi nə İsrail, nə də Fələstin tərəfdarı seçicilərdən məhrum etməmək üçün tarazlıq saxlamağa məcburdur. Bu, əsasən israillilərə Qəzza zolağında əməliyyatı başa çatdırmağa niyə icazə verilmədiyini izah edir. Bunu HƏMAS-ın qələbəsi saymaq olmaz. Qəzza zolağındakı hərəkatın liderləri Məhəmməd Deif və Yəhya Sinvar keçən ilki bəyanatlarına əsasən, öz qələbələrini indikilərdən qəti şəkildə fərqli gördülər.

Ancaq etiraf etmək olmaz ki, bir il sonra Benyamin Netanyahu hökumətinin müharibə zamanı qarşıya qoyduğu məqsədlərdən birinə də nail olunmayıb. HƏMAS tam məğlub edilməyib, Qəzza zolağı tam işğal olunmayıb, girovlar azad edilməyib (bu gün onlardan neçəsinin sağ olduğu belə məlum deyil), 7 oktyabr hücumunun bütün təşkilatçıları məhv edilməyib. Nəhayət, İsrail terror hücumlarından qorunmayıb. Onlar hətta kədərli ildönümü ərəfəsində baş verir: 6 oktyabr 2024-cü ildə İsrailin Beerşeba şəhərindəki qatar stansiyasında terrorçu yoldan keçənlərə hücum edərək, 25 yaşlı qızı, sərhəd polisi çavuşunu öldürüb.

Lakin İsrail təhlükəsizlik qüvvələri şimal istiqamətində güclü şəkildə reabilitasiya ediblər. Onlar bir neçə gün ərzində HƏMAS-ın müttəfiqi olan Livan Hizbullah hərəkatına əhəmiyyətli zərbələr endirib, onun bir neçə tanınmış liderini, o cümlədən ən mühümü Şeyx Həsən Nəsrullahı öldürdülər. İndi Livanın cənubunda İsrailin quru əməliyyatı davam edir, onun uzunmüddətli nəticələrini proqnozlaşdırmaq mümkün deyil, yalnız bir şey istisna olmaqla: döyüşlər uzun müddət davam edəcək. Onsuz da İsrail üçün tarixində ən uzun sürən müharibələrdən biri olan bu müharibə ən uzunmüddətli müharibə olma riski daşıyır. 7 oktyabr hadisələrindən əvvəl böyük müharibənin olmayacağı az qala aksioma idi, çünki bunun heç kimə, ən azı HƏMAS-a faydası olmayacaqdı. Hərəkatın liderləri ləng, indi səngiməkdə olan, indi alovlanan, lakin müəyyən dərəcədə İsraillə qarşıdurma şəraitində yaxşı yerləşmiş kimi görünürdülər və sponsorlardan öz hesablarına yeni vəsaitlərdən başqa bir şey xəyal etmirdilər. İndi də görünən odur ki, hərbi əməliyyatların artması nə İranın, nə ABŞ-ın, nə də İsrailin maraqlarına cavab vermir. Bəs indi bunun baş verməyəcəyinə kim zəmanət verir?

2023-cü il oktyabrın 7-də baş verən hadisələrin hansı prosesin başlanğıc nöqtəsi olduğunu təkcə onlar deyil, tarixçilər də illər sonra başa düşəcəklər. Bəlkə də - Yerusəlim Krallığının, biblical yəhudi krallıqlarının və ya dünyanın bu küncündə mövcud olan digər indi unudulmuş güclərin taleyini bölüşmək üçün təyin olunan İsrailin dağılması və ya bəlkə də əksinə, oktyabrın 7-dən İsraillə qarşı çıxan qüvvələr məhv olması prosesi başlayacaq. Və ya bəlkə də oktyabrın 7-si Yaxın Şərq münaqişəsində qaliblərin olmayacağı, lakin regiondan kənarda da daxil olmaqla, itirənlərin çox olacağı yeni mərhələnin başlanğıcı olacaq.



### İldönümü İranı narahat edib

HƏMAS-ın İsraili işğalının birinci ildönümü İran elitasını "şiə NATO-su" ideyasına qayıtmağa məcbur edib. Bu, son bir ildə yəhudi dövlətinə zərbə endirməkdə yüksək səviyyədə koordinasiya nümayiş etdirən İslam Respublikasına müttəfiq olan bütün regional qüvvələrlə müttəfiqlik layihəsidir. Qərb ölkələri Tehranın ayrı bir cavab formasının hərbi nüvə enerjisinin inkişafında sıçrayış ola biləcəyindən şübhələnirlər. Məhz buna görə də ABŞ İsraildən İranın infrastrukturuna sərt zərbədən əl çəkməsini istəyib. Belə bir əməliyyatın dəyəri çox yüksəkdir.

İran Parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyası Yaxın Şərqdə İrana yaxın ittifaqın rəsmiləşdirilməsi ideyasına qayıtmağı təklif edib. Hökumət qurumlarının məlumatına görə, deputatlar artıq qondarma müqavimət paktı - Tehranla ona sadiq olan dövlətlər klubu və regiondakı "azadlıq hərəkatları" arasında kollektiv reaksiya haqqında saziş haqqında qanun layihəsi hazırlamağa başlayıblar. Təşəbbüs vahid hərbi infrastrukturun yaradılmasını və hərbi əməliyyatların əlaqələndirilməsi və manevrlərin keçirilməsi üçün tam hüquqlu operativ qərargahın formalaşdırılmasını nəzərdə tutur. Bu plana görə İranın Ali Milli Təhlükəsizlik Şurasının məsuliyyət daşıması təklif edilir.

Son illər İslam Respublikasında "NATO tipli" ittifaq yaratmaq çağırışları tez-tez eşidilirdi, lakin son zamanlar İsraillə birbaşa qarşıdurmanın yaranması əvvəlki bütün fobiyaları gücləndirib. İran ordusunun baş komandanı, general-leytenant Əbdülrəhim Musəvi oktyabrın 7-də bildirib ki, İsrail İrana qarşı kütləvi hücuma qərar verərsə, ona əvvəlkindən daha güclü və daha dağıdıcı cavab verməyə hazırdır. Bununla belə, hərbi lider, bunun tez olmaya biləcəyini açıqlayıb. General-leytenant söz verib ki, bir müddət səbirli olmalıyıq və təmkinliliyin acısına dözməliyik, amma mütləq hərəkətə keçəcəyik".

7 oktyabr faciəsinin ildönümündə danışan İsrailin baş naziri Benyamin Netanyahu ölkəsinin öz maraqları perimetri boyunca apardığı hərbi kampaniyaları dirçəliş müharibəsi adlandırıb. "İranın şər oxundakı düşmənlərimizə qarşı əks-hücumumuz gələcəyimizi və təhlükəsizliyimizi təmin etmək üçün vacibdir" deyib. İsrail Müdafiə Qüvvələrinin Telegram kanalı xəbər verir ki, həmin gün İsrail hərbçiləri yenidən Beyruta hədəfli zərbələr endiriblər. "İsrail qüvvələri Hizbullahın əsas qalası olan Dahiya bölgəsinə hədəfli zərbələr endirir", - deyə hesabatda bildirilir.

İsrail mediasının məlumatına görə, ABŞ prezident administrasiyası hazırda İrana zərbə endirmək variantları ilə bağlı Netanyahu hökuməti ilə sıx əlaqə saxlayır. Vaşinqton Yaxın Şərqdəki müttəfiqini İran ərazisinə "xüsusi hədəflərə" hücumlardan əl çəkməyə inandırır və bunun müqabilində "geniş diplomatik dəstək və əlavə hərbi yardım" daxil olan "kompensasiya paketi" təklif edir. "Biz müttəfiqimiz olan Birləşmiş Ştatlara diqqətlə yanaşır və hər zaman onu dinləməyə hazırıq. Eyni zamanda, biz İsrail vətəndaşlarını və İsrailin təhlükəsizliyini qorumaq üçün lazım olan hər şeyi edəcəyik", - İsrail rəsmisi Kan News Corporation-a bildirib. Qərb müşahidəçiləri indi təkcə Hizbullahın baş katibinin ləğvindən sonra rəhbərlik problemi ilə deyil, həm də Qüds Qüvvələrinin İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) tərkibində fəaliyyət göstərməsi ilə maraqlanır. Reuters xəbər verir ki, sentyabrın 27-dən sonra Livana səfər etdiyi iddia edilən Qüds Qüvvələrinin komandiri İsmayıl Qaaninin əlaqəsi kəsilib. Tehrana müxalif olan peyk telekanalları da buna diqqət yetirir.

İranın əleyhdarları ən çox ehtiyat edirlər ki, İsraillə münaqişə ətrafındakı vəziyyət İslam Respublikasını "nüvə" istiqamətində irəliləyişə sövq edəcək. Oktyabrın 5-də İranın paytaxtın cənub-şərqində yerləşən Semnan əyalətində 4,5 bal gücündə zəlzələ baş verib. Monitorinq strukturlarının məlumatına görə, ocaq 10 km dərinlikdə yerləşib. Bir sıra qərbli və israilli analitiklər bu yolla Tehranın nüvə silahının yeraltı sınağı keçirdiyi haqda versiya irəli sürməyə tələsiblər. Üstəlik, bütün fərziyyələrə görə, İran artıq tam təchiz olunmuş bomba almağa yarım addım qalmışdı.

"Bu il İranda ABŞ və İsrailə qarşı çəkindirmə doktrinasının nüvə silahı da daxil olmaqla dəyişdirilməsinin zəruriliyi və ya mümkünlüyü barədə danışanların səsləri getdikcə daha çox eşidilir, çünki köhnə çəkindirmə modeli uğursuzluğa düçar olur", - baş tədqiqatçı bildirib: "Hələlik rəsmi səviyyədə heç bir dəyişiklik baş verməyib və İran hələ də nüvə silahının əleyhinədir. Amma mənim fikrimcə, əgər İran rəhbərliyi kalibrlənmiş məhdud raket zərbələri vasitəsilə çəkindirmə qabiliyyətini bərpa etmək cəhdlərinin nəticə verməyib və genişmiqyaslı müharibəyə doğru daha da genişlənmə təhlükəsi olduğu barədə qərar qəbul etsə, vəziyyət kəskin şəkildə dəyişə bilər".

İsrail, təbii ki, İranın müxalif qüvvələr yaratmaq strategiyasını dayandırmalı idi, lakin yəhudi dövlətinin fəaliyyəti çox təhlükəlidir. İsrail yəqin ki, İranın daxilində İİKK və Ali Rəhbərin hərəkətlərinə qarşı müxalifətin olması faktına arxalanır. Neft infrastrukturuna hücumların mübadiləsi davam edərsə, İran çətin ki, Hörmüz boğazını bağlaya bilər, çünki o, özü bu nəqliyyat arteriyasından istifadə edir. Xammalın qiymətlərindəki sıçrayış hətta Donald Tramp üçün faydalı ola bilər, çünki İsrail onu bu günə inandıra bilər. Ancaq bu hərəkətlərin çox gözlənilməz dönüşləri var. İranın nüvə obyektlərinə zərbənin yalnız müvafiq silahlar əldə etməsini sürətləndirə biləcəyindən başlayaraq, regionda praqmatik əməkdaşlıq üçün mövcud əhval-ruhiyyəni nəzərə alsaq, eskalasiya dərinləşdikdən sonra diplomatiya oynamağın son dərəcə çətin olacağı faktı ilə bitir.

**V.VƏLİYEV**

# “ABŞ işğalçı dövlətin yanında olduğunu sübut edib”

“İlk olaraq onu deyim ki, ABŞ və Azərbaycan arasında yaranmış mövcud vəziyyətin səbəbkarı Azərbaycan deyil”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. O bildirib ki, Azərbaycan olaraq biz hər zaman Birləşmiş Ştatlarla qarşılıqlı faydalı ikitərəfli əməkdaşlıqda maraqlı olmuşuq: ” Ölkə olaraq biz daha çox ABŞ-ı maraqlandıran beynəlxalq təhlükəsizlik məsələləri üzrə əməkdaşlıqda fəal iştirak etmiş, ABŞ-ın xahişi ilə NATO-nun əməliyyatlarına töhfə





vermiş və həmin əməliyyatlarda ləyaqətlə iştirak etmişik. Bir sözlə, Azərbaycan tərəfi hər zaman ABŞ ilə iki ölkə xalqlarının maraqlarına və BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq mehriban münasibətlər qurmaq və inkişaf etdirmək üçün məsuliyyətli və konstruktiv şəkildə davranmışdır. Amma təəssüf ki, Ağ ev admistrasiyası tərəfindən eyni maraq heç bir zaman müşahidə olunmayıb. Odur ki, ABŞ-ın Azərbaycana yönəlik təzyiqləri əslinə baxanda yeni bir şey deyil.

Hələ 90-cı illərdə müstəqilliyimizi yeni əldə etdiyimiz dönəmdə, ərazilərimiz işğal altına düşəndə, insanımıza qarşı ermənilər tərəfindən soyqırımlar törədiləndə ABŞ 907-ci düzəlişi qəbul etməklə bizə qarşı olan mövqeyini ortaya qoyub. Sonrakı dövrdə də ATƏT Minsk Qrupunun həmsədri kimi Ermənistana qarşı addımlar atmamaqla, ermənilərdən işğal etdikləri ərazilərdən çıxmasının vacibliyi ilə bağlı BMT Qətnamələrinin icrasını tələb etməməklə işğalçı dövlətin yanında olduğunu sübut edib. Başqa sözlə desək vaxtilə işğal edilmiş ərazilərdə Azərbaycan xalqının mədəni irsinin, məscidlərin, tarixi abidələrin dağıdılması, təhqir edilməsi, bütöv şəhər və kəndlərin yer üzündən silinməsi məhz elə ABŞ-ın gözü qarşısında baş verib. İndi isə, yeni Vətən müharibəsində qələbədən sonra regionda yaranmış yeni reallıqlar fonunda region ölkələrini özündən asılı vəziyyətə salmaq yolu tutmuş ABŞ bölgənin əsas gücü olaraq bizi özü üçün hədəf seçib.

Məqsəd bəllidir. Ölkəmizin müstəqil siyasətini sarsıtmaq, bizləri müti və sözəbaxan ölkəyə çevirmək əsas məqsədidir. Bunun fonunda da özlərinin Cənubi Qafqaz maraqlarını təmin etməkdir. ABŞ Dövlət departamenti yanlış olaraq düşünür ki, müxtəlif bəhanələrlə təzyiqlər yolu ilə bizi Ermənistan kimi özlərindən asılı ölkəyə çevirə biləcəklər.

Bir neçə gün əvvəl ABŞ Senatının 10, Konqresinin 48 üzvünün dövlət katibi Entoni Blinkenə ünvanladığı müraciət də bunun bariz sübutudur. Bu müraciətin dövlət departamenti rəsmiləri tərəfindən yazıldığı və sonradan Konqres tərəfindən ünvanlanmış müraciət kimi təqdim edilməsi artıq heç kimdə şübhə doğurmur. Görünən odur ki, ABŞ-da bir qism Qərb dövlətləri kimi onların iradəsi olmadan Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə barışa bilmir.



İnsan hüquqları isə sadəcə bir bəhanədir. Əgər belə olmasaydı, onlar ilk növbədə Ermənistanda insan hüquqlarına vəziyyətinə dair çağırışlar edərdilər. Belə ki, Ermənistanın özündə ən müstəqil ekspertlərin və qeyri-hökumət təşkilatlarının hazırladığı hesabatlara görə Paşinyan hakimiyyəti dönəmində Ermənistanda siyasi fəaliyyətinə və baxışlarına görə saxlanılan, həbs olunan, haqqında cinayət işi qaldırılmış şəxslərin sayı indiyə qədərki hakimiyyətlərin dönəmindən qat-qat çoxdur. Amma biz ABŞ tərəfindən niyəsə bu məsələlərlə bağlı hər hansı çağırışa şahidlik etmirik. Demək ki, məqsəd, həqiqətən də, insan hüquqlarının qorunması yox, bundan istifadə edərək ölkəmizə təzyiq etməkdən ibarətdir.

Bu gün ”Dağlıq Qarabağın siyasi liderləri” kimi təqdim etdikləri müharibə canilərini sərbəst buraxmaqla bağlı çağırışlar edən ABŞ Konqresmenləri ilk növbədə Ermənistandan bütün azərbaycanlıların deportasiya edilməsinə, işğal dövründə taleyi bilinməyən 4 min azərbaycanlı itkinlə bağlı Ermənistanın heç bir məlumat verməməsinə və yaxud da öz ölkələrinin ən mühüm insan hüquqları konvensiyalarına qoşulmamasına, BMT-nin İşgəncələrə qarşı xüsusi məruzəçisini uzun illər Quantanamoya buraxmamasına münasibət bildirməlidirlər. Amma yenə də təkrar edirəm ki, bunlar baş vermir. İndiyə qədər ayrı-ayrı beynəlxalq qurumlarda Ermənistanla bağlı qəbul olumuş qərar və qətnamələrin rəsmi İrəvan tərəfindən icra olunmamasına susduqları kimi yenə də susurlar. Halbuki, bu gün bütün imkanları ilə Ermənistanı müdafiə edən AŞPA kimi qurumların belə zamanında Ermənistanla bağlı kifayət qədər Qətnamələri olub. Məsələn, AŞPA-nın 2005-ci il yanvarın 25-də qəbul etdiyi 1416 nömrəli ”ATƏT-in Minsk qrupu tərəfindən tənzimlənən Dağlıq Qarabağ münaqişəsi haqqında” qətnaməsində Azərbaycan ərazilərinin işğal faktı təsdiqlənib, bu ərazilərdəki etnik təmizləmələrdən narahatlıq ifadə edilib, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə riayət edilməsinə və qoşunların işğal edilmiş ərazilərdən geri çəkilməsinə çağırış edilib. Təşkilat, həmçinin məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüququnu təsdiqləyib, üzv dövlətin ərazisinin digər üzv dövlət tərəfindən işğal edilməsinin yolverilməzliyini vurğulayıb. Amma nədənsə bizlər bu Qətnamənin icrasından boyun Qaçıran Ermənistanla bağlı hər hansı cəza tədbirinə şahidlik etməmişik”.

Onun sözlərinə görə, başqa bir Qətnaməyə, yenə də AŞPA tərəfindən 6 yanvar 2016-cı ildə qəbul edilmiş 2085 saylı qətnamyə baxaq: ”Bu Qətnamədə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisində yerləşən Sərsəng su anbarının cari vəziyyətinin yeni humanitar böhran yarada bilməsi ehtimalı qeyd olunmuş və Ermənistan hakimiyyətindən su ehtiyatlarından ”siyasi təsir aləti və ya təzyiq vasitəsi kimi istifadəni dayandırması” tələb edilmişdir. Bununla yanaşı, sənəddə sözügedən məsələ ilə bağlı hesabatın hazırlanması zamanı Ermənistan parlamentinin nümayəndə heyətinin və digər səlahiyyətli şəxslərin əməkdaşlıq etməməsi Assambleya tərəfindən qətiyyətlə pislənilmişdir. Həmin Qətnamə 9 bənddən ibarət idi. Qətnamənin III-IV bəndlərində təəssüflə qeyd olunurdu ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı azərbaycanlılar üçün ”qəsdən süni ekoloji böhran vəziyyəti” yaratdığından bu cür fəaliyyət ”ekoloji təcavüz” hesab olunmaqla, bir üzv dövlətin digərinə qarşı ”düşmənçilik hərəkəti kimi qiymətləndirilməlidir.” Mövcud vəziyyətin təcili xarakterini nəzərə alan AŞPA növbəti müddəalarda iki mühüm tələb irəli sürmüşdü: Ermənistan Silahlı Qüvvələrinin regiondan dərhal çıxarılması və Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərindən yalnız birinin xeyrinə olacaq vasitə kimi istifadəni dayandırması. Amma bizlər bu Qətnamələrdən sonra da Ermənistana gözün üstündə qaşın var deyəni görmədik.

Bütün bunlar bir daha ABŞ başda olmaqla ayrı-ayrı dövlət və beynəlxalq institutların öz fəaliyyətində və qərarlarında səmimi olmadığını, proseslərə ikili standartlarla yanaşdığını göstərir. Odur ki, Azərbaycan Milli Məclisinin bir qrup üzvünün Xarici İşlər Naziri Ceyhun Bayramova ünvanladığı müraciət tamamilə əsaslıdır və bu istiqamətdə konkret addımların atılmasına ehtiyac var”.

**Söylü Ağazadə**



## Qapısından pərdə asılan evlər

**Lalə Mehralı**

***İnsanın məhrəmiyyət və qorunma duyğusunu hiss etməsi ilə eyni vaxtda yaranıb pərdə ehtiyacı. Elə farscadan tərcümədə də örtən, pünhan edən mənasını verir. Elə insan da pünhan qalmaq istədiyi üçün pərdəyə ehtiyac duyub, istifadə edib. Pərdə həyatımıza girəndə qapı anlayışı yox idi insanın, qapı nədir, necə olur, bilmirdi. İbtidai dövrlərdə insanların sığınacaq imkanları indikilərdən fərqli idi, mağaralarda yaşayan insanlar çöldən gələn isti və soyuq havanın qarşısını almaq üçün, yırtıcı heyvanlardan qorunmaq üçün heyvan dərilərindən, ağac yarpaqlarından pərdə düzəldirdilər mağara girişinə. Sivilizasiya inkişaf etdikcə mağaranın içində, sonralar daxmalarda pərdələrlə arakəsmələr-otaqlar yaratmağa başladı insan, beləcə evdəki məhrəmiyyət qorundu, qadın-kişi, böyük-kiçik arasındakı pünhanlıq o pərdələrlə tənzimləndi.***

İndi də var rayonlarda, kəndlərdə, evlərin pəncərəsindən başqa qapısına da pərdələr asılır. Həm daxili, həm də bayıra açılan qapılarda görmək ola o pərdələri. Xüsusilə evin bayır qapısında pərdə mədəniyyəti var kənd yerlərində. İstidə, bürküdə qapı açıq saxlananda o pərdələr qoruyur məhrəmiyyəti, içəridəkiləri. O pərdə ardır, həyadır o insanlar üçün. O pərdə yuxarı qaldırılmır, yığılmır, daimi açıqdır. O pərdəli evlərdəki insanların namusu, arı, həyası həmişə nümunə olurdu. Bayır qapısında pərdə olan evlərdən əxlaqsız insan çıxmazdı, həyasız insanlar yaşamazdı o pərdələrin arxasında. Həyası, əxlaqı olmayanlar niyə qapısına pərdə tutmaq ehtiyacı duysun ki?

Bu günlərdə bir şeyin fərqinə vardım, ara-sıra sosial şəbəkələrdə qarşıma çıxan videolarda o pərdə asılmış qapılardan çox görməyə başlamışam axı. Yenə qapı açıqdır, pərdə örtülü. Bir şey fərqli idi, indi o pərdəli qapıların arxasındakı məhrəmiyyət yox idi o videolarda. Əksinə, pərdə önündə baş verirdi baş verəcəklər. Nə baş verirdi?

Cinsi azlıqlar rəqs edir o pərdəli qapıların önündə. Əynində dar bir qadın corabı (retuz dediyimiz geyim), göbəyini açıqda qoyan bir köynək ( indiki gənclər ona crop deyir), ayağında bir qadın şəpşəpi, saçları yeni uzanmağa başlayan, üzünü ülgüclə dərindən təmizləyən, sir-sifəti boyalı yarı kişi, yarı qadın biri rəqs edir o videolarda. Nə kişi deyil, nə qadın, qadın olmağa hazırlaşan kişi demək olar.

Əvvəl paytaxtda rastlaşırdıq belə vəziyyətlərlə, gecə klublarından çəkilib paylaşılan kadrlarda görürdük bu cür yarı qadın, yarı kişi adamları. Sonralar sosial şəbəkələrdəki aktivlik artdıqca instaqramda, tik-tokda qəribə adamlar peyda olmağa başladı, canlı yayımlar açıb söhbət etməyə, izləyici yığmağa başladılar o adamlar. Öz parıltılı həyatlarını göstərdilər o canlı yayımlarda, necə yaşayırlar, nə cür yaşayırlar, hamısını çəkirlər. Bahalı həyat, əla döşənmiş ev, son model maşınlar, lüks məkanlarda əyləncə gəncləri beləcə cəlb etdi. Kişi kimi bir qazancı olmayacağını görən yeniyetmə, cinsini danmağı, onun kimi yaşamağı seçir, əgər belə etsə daha lüks həyatı olacağını dərk edir. Yalan da deyil, onların həyatı bahalıdır. Kim maliyyələşdirir, kim sponsorluq edir bilmirəm, amma bu həqiqətdir ki, onlar dolanışıq dərdi çəkmirlər, pulu kağız kimi xərcləyirlər, hər həftə bir ölkəyə səyahət edirlər.

O pərdəli ev qapılarının qarşısında rəqs edən, canlı yayım açanlar, baxış toplamaq, özünü tanımaq hayında olanlar da onlar kimi olmağa çalışan gənclərdir. Ən ucqar rayonlarda, kəndlərdə belə bu vəziyyət hökm sürür. Belə insanlar əvvəllər də vardı, amma bu qədər yox. Olanlar da cəmiyyətin stiqmasından, qınağından qorxurdu, üzə salmırdı. Bilmirəm, bəlkə də elə bu qədər imiş, internet üzə çıxardı hamısını. Rəqəmsallıq əxlaqı da başqa müstəviyə keçirdi, cinsiyyəti də. O cinsini dananlar kimi olmaq istəyən o qədər uşaq var ki indi. Bir qığılcım gözləyirlər sadəcə, qınaqdan qorxmayanlar da o kamera önündə istədiyini edənlərdir.

Çox narahatam, öz övladlarım üçün, hamının balası üçün. Bir vaxtlar uzaq ölkələrdəki orta cins polemikalarını oxuyub təəccüb edirdik, bizdəki orta cinslərdən xəbərsizmişik. Yağış sonrası göbələk misalı, hər yerdədirlər. Sayları getdikcə artır, kütləviləşir vəziyyət. Vaxtilə ata-anasından çəkinən indi cəmiyyətdən də çəkinmir, ətrafı vecinə almır. Pərdə qalxıb artıq, jurnala baxdıq, kino qabaqdadır. Anons heç yaxşı şeylər söyləmədi bizə...

# Yox olan peşələr: poçtalyonlar

***Çox yox, 30 il əvvəl idi, küçəmizdə, məhəlləmizdə hər gün görməyə adət etdiyimiz poçtalyon bir növ ailə üzvümüzə çevrilirdi. Bir gün məktub, başqa gün abunə olduğumuz qəzet-jurnalı, o biri gün bildiriş gətirirdi. "Göyərçin" jurnalını həsrətlə gözlədiyimiz də az olmayıb. "Ana və poçtalyon" şeirini əzbərləyib danışdığımız o illər indi necə uzaq gəlir insana. Hər evə heç olmasa həftədə 1 dəfə baş çəkirdi poçtalyon. Çiynindən asılmış məktub dolu çantası, qoltuğundakı qəzet-jurnal, ayaqla gəzdiyi onlarla küçə, girdiyi yüzlərlə ev - dövrün ümumiləşmiş poçtalyonu belə idi.***





O zamanlar poçtalyonlar ünsiyyətin, sosiallaşmanın ayrılmaz hissəsi idi. Qonşu ölkələrdə dərc olunan jurnalları, almanaxları poçtalyonun gətirməsini elə həsrətlə gözləyirdik ki. Poçtalyonlar hansı evə hansı gün məktub gələcəyini, kimin hansı qəzetə, jurnala abunə olduğunu əzbər bilirdi. Məktubda ünvan səhv yazılanda yenə də doğru ünvana çatdırırdı, çünki adbaad, evbəev hamını tanıyırdı. Poçtunu daşıdığı hamının dostu idi poçtalyon. Gözü yazını seçməyən qocaların məktub oxuyanı, yaza bilməyənlərin cavab yazanı idi onlar. Kiminin evində nahara dəvət edilirdilər, kiminin evində isti sacın xamralısına, qaynar samovarın pürrəngi çayına qonaq olurdular. İsti yay günlərində poçtalyon üçün soyuducuda daima sərin su, buz kimi qarpız saxladan babamı xatırladım bir an...

## 9 noyabr Ümumdünya Poçt Günüdür

Ümumdünya Poçt Günü Ümumdünya Poçt İttifaqının (ÜPİ) yaranma tarixi ilə bağlıdır. Ümumdünya Poçt İttifaqı poçt əlaqələrini təmin etmək və təkmilləşdirmək məqsədilə 1874-cü il oktyabrın 9-da İsveçrənin paytaxtında 22 ölkənin nümayəndələrinin imzaladığı Bern müqaviləsi ilə beynəlxalq təşkilat kimi təsis olunub. 9 oktyabrın Ümumdünya Poçt Günü kimi qeyd olunması ilə bağlı qərar isə 1969-cu ildə Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilən ÜPİ-nin konqresində qəbul olunub.

192 ölkəni özündə birləşdirən Ümumdünya Poçt İttifaqının baş qərargahı Berndə yerləşir. Yarandığı vaxtdan ötən illər ərzində çox böyük tarixi inkişaf yolu keçmiş ÜPİ hazırda dünyanın, demək olar ki, bütün ölkələrini özündə birləşdirməklə, təkcə poçt sahəsində deyil, həm də beynəlxalq aləmdə vacib rolu olan və digər beynəlxalq təşkilatlarla sıx əlaqəli şəkildə fəaliyyət göstərən bir quruma çevrilib. ÜPİ həm də siyasi bir təşkilat olmaqla BMT-nin xüsusiləşdirilmiş idarəsi kimi fəaliyyət göstərir.

## 205 yaşlı Azərbaycan poçtu

Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra bir çox beynəlxalq təşkilatlarla yanaşı, 1993-cü ilin aprel ayında ÜPİ-yə üzv qəbul olunub və hazırda tamhüquqlu üzv kimi fəaliyyət göstərir.

Azərbaycanda poçt rabitəsi Səfəvilərin hakimiyyəti dövründə (XVI əsr) inkişaf etməyə başlayıb. Müasir formada poçtun yaranması isə XIX əsrin 1-ci qərinəsinə təsadüf edir. 1818-ci il iyunun 1-də Gəncə şəhərində ilk poçt kontoru açılıb. 1861-ci ildə ilk dəfə olaraq Xəzər dənizi ilə Qafqazın və İranın Rəşt, eləcə də Astarabad limanları arasında dəniz poçt mübadiləsi yaranıb. 1863-1872-ci illərdə İran tranzit ticarətinin müdafiəsi məqsədilə Tiflis və Culfa arasında poçt rabitəsi qurulub. Culfada poçt şöbəsi yaradılaraq, İranla Azərbaycan arasında ilk beynəlxalq məktub mübadiləsi təsis edilib.

Azərbaycanda poçtun dəmiryol nəqliyyatı ilə daşınmasına 9 may 1883-cü ildə Bakı-Tiflis,1900-cü ildə isə Bakı-Dərbənd arasında başlanılıb. 1918-ci il oktyabrın 6-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibində Poçt və Teleqraf Nazirliyi yaradılıb.







## Müharibə poçtalyonları

Azərbaycan poçtunun ən çətin və həm də ən şərəfli dövrü II Dünya müharibəsi illərinə təsadüf edir. Bu illərdə xüsusilə poçtalyonların fədakarlığını qeyd etmək vacibdir. Həmin dövrdə poçt işçilərinin üzərinə ikiqat məsuliyyət düşürdü, çünki poçt göndərişlərinin həcminin artması və əsgər məktublarının vaxtında ünvanlara çatdırılması bütün mənalarda məsuliyyət tələb edirdi.

Müharibə dövründə poçtalyon işləmək həm də möhkəm iradə tələb edirdi. Əsgər məktublarını sevinclə daşıyan poçt işçiləri qara kağızların ünvana çatdırılması işində ciddi sarsıntı keçirir, aylarla, illərlə üçbucaq əsgər məktubu daşıdığı ailəyə ölüm xəbəri verməyin əzabını yaşayırdılar. O dövrdə poçtalyonlar ən çox arzulanan qonaq idi, amma məktubların arası kəsiləndən sonra poçtalyon arzuedilməyən qonaq olurdu, "qəfil gələr, qara xəbər gətirər" qorxusu olurdu ailələrdə.

## Poçt xidməti bahalıdır

Təəssüf ki, hazırda nəinki beynəlxalq, həmçinin ölkədaxili poçt xidmətlərində sürətli bahalanma var. Ölkədaxili banderol, həmçinin orta və böyük ölçülü bağlamaların daşınma xidmətləri üçün təyin edilən qiymətlər bahadır.

Böyük ölçülü məktub və banderol üçün təyin edilən tarif 100 qramadək sadə 0,80, sifarişlə 1,40 manatdır. 100 qramdan 250 qramadək olan banderollar sadə 1,10, sifarişlə 1,70, 250 qramdan 500 qramadək olan banderollar 1,40 - 2,00 aralığındadır. Həcmin miqdarı qramla artıqca tarif də artır. 2 kiloluq bir paketi ölkədaxili bir ünvana 3-3.60 manata göndərə bilərsiniz.

Adi bağlamanın 1 kq-ı üçün təyin edilən məbləq 0.60 qəpikdir. Yəni, siz bir rayondan digərinə 10 kq-lıq bir qutu göndərsəniz bunun üçün poçta 6 manat rüsum ödəməli olacaqsınız. Həmçinin, çəkidən asılı olmayaraq hər bağlama üçün 3 manat tələb edilir. Beynəlxalq poçt xidmətləri isə I və II zona üzrə ayrılmaqla fərqli tariflərlə həyata keçirilir. Kiçik ölçülü məktub üçün tarif 2.10 manatdan. 5.70 manatadək dəyişə bilir. Böyük ölçülü məktub və banderol üçün qiymətlər 9.30-dan 16 manatadək dəyişir. Həcm artıqca göndərmə xərcləri 50 manatadək yüksəlir.

Əvvəl internetin, sonra da sosial şəbəkələrin həyatımıza girdiyi vaxtdan etibarən daha poçtalyonalara da ehtiyac qalmadı. 1 həftə məktub gözləmək xəyal oldu, "e-mail"imizə 1 neçə dəqiqəyə cavab almaq daha rahat gəldi bizə. Sosiallaşmaq üçün daha məktub gözləmədik, mütaliə üçün mətbua orqan gözləmədik, bütün ehtiyaclarımızı internet ödədi. Geridə isə işsiz qalan poçtalyonlar və bahalı poçt xidmətləri qaldı...

***Lalə Mehralı***

# Azad torpaqlarımız:

## Hadruta yeni həyat gəlir...

***2020-ci ilin sentyabrında başlayıb 44 gün davam edən Vətən müharibəsi digər işğal altında olan torpaqlarımız kimi, Hadrutu da azadlığına qovuşdurdu. 9 oktyabr Azərbaycan tarixinə Hadrutun azad olunması kimi qızıl hərflərlə yazıldı. Bu gün Hadrutda Azərbaycan bayrağı dalğalanır və bu bayrağın dalğası altında yurd yerimizə yeni həyat gəlir. Burada aparılan bərpa işləri Hadruta yeni həyatın verilməsi ilə yanaşı, həm də sakinlərinin tezliklə ata-baba ocaqlarına qayıtmasına xidmət edir.***








### Hadruta qısa səyahət...

Hadrut-təbiətin iki çayın arasına sığdırdığı bu qədim Azərbaycan torpağı adının mənasından və coğrafiyasından da göründüyü kimi, həm də təbiətin bütün gözəlliklərini özündə ehtiva edir. Bu yurd yeri zaman-zaman milli ənənələrimizi qorumuş, xalçaçılıq, baramaçılığı, ticarəti və müxtəlif sənətkarlıq növlərini, xalqımıza məxsus əkinçilik mədəniyyətini yaşatmışdır.

Dəqiq salınma vaxtı məlum olmayan qəsəbə həm qədim, həm də orta əsr dövrünə aid abidələrlə zəngin olub. Qəsəbənin adı 1727-ci ildə Osmanlı qaynaqlarında Dizaq nayihəsinin Hadrut kəndi olaraq keçir. Çar dövründə Hadrut kəndi Yelizavetpol quberniyasının Cəbrayıl qəzasının tərkibində idi. Bura 1847-ci ildən Poltava atlı kazak alayının qərargahı idi.

1872-ci ildə Moskvada keçirilmiş Politexnik sərgisində iki sakininin təqdim etdiyi xalçalara görə gümüş mükafata layiq görülməsi, 1877-ci ildən burada Zurabov, Muradov və şəriklərinə məxsus baramaaçma karxanasının fəaliyyət göstərməsi Hadrutun inkişaf etmiş bir ərazi olduğunu şərtləndirir.

Əhali bağçılıq, bostançılıq, taxılçılıq, maldarlıq, ticarət və sənətlə məşğul idi. Hadrutda o dövrdə iki bazar, kilsə, ikiillik məktəb, birillik prixod məktəbi, zemstvo əczaxanası və teleqraf stansiyası fəaliyyət göstərirdi.

1923-cü ildə Hadrut kəndi Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin (hazırda bu muxtariyyət ləğv olunub) tərkibinə verilmişdir, 1930-cu ildə isə yeni yaradılmış Dizaq rayonunun inzibati mərkəzi seçilmişdir. 1939-cu ildə həmin rayon öz mərkəzinin adına uyğun olaraq Hadrut rayonu adlandırılmışdır. 1963-cü ildə Hadruta şəhər tipli qəsəbə statusu verilmişdir. Qəsəbədə üzüm emalı zavodu, xalça sexi, musiqi və ümumtəhsil məktəbləri, mədəniyyət evi, mərkəzi kitabxana və rayon xəstəxanası yerləşirdi.

Bəstəkar Üzeyir Hacıbəyov gənc yaşlarında Hadrutda müəllimlik etmişdir.

1992-ci ildə Hadrut rayonu ləğv olunub Xocavənd rayonunun tərkibinə daxil edilmiş, 2 oktyabr 1992-ci ildə -Birinci Vətən müharibəsi zamanı separatçı erməni qoşunları Hadrutu ələ keçirmişdir.

### Beləliklə, 30 ilə yaxın...

Ermənilərin havadarlarından aldıqları dəstəklə digər torpaqlarımız kimi, Hadrut da işğal olunmuşdu. Hadrut sakinləri də minilliklər boyu diş-dırnaqları ilə qurub-yaratdıqları ev-eşiklərini, həyat-bacalarını, mal-heyvanlarını, əkin sahələrini bar üstündə qoyub düşmən tərəfindən silah gücü ilə doğma ocaqlarını tərk etmişlər.

Hadrut sakinləri 30 ilə yaxın idi ki, yurd həsrəti ilə, bir gün doğma el-obalarına qayıtmaq ümidi ilə yaşayırdı. Hadrut sadəcə onların yuxularının Hadrutu olmuşdu. 30 ilə yaxın idi ki, yurd həsrəti sinələrinə dağ çəkirdi...

Erməni adlı xislətsiz, nankor isə torpaqlarımızı talan edir, yeraltı-yerüstü sərvətlərimizi daşıyıb satır, abidələrimizi, sosial obyektləri dağıdır, illərlə insanların min bir arzu ilə özlərinə qurduqları yuvaları məhz edir, daşı daş üstündə qoymurdu. Bütün bunları bilirdi hadrutlular. O səbəbdən bağırları çatlayırdı. Yurdlarında qoyub gəldikləri hər şey onların doğması idi, əllərinin zəhməti idi, reallaşan, lakin qısaömürlü arzuları idi.

Lakin o gün gələcəkdi, torpaqlarımız işğaldan azad olunacaqdı. Mərdliyi, igidliyi, qəhrəmanlığı ilə tarixə imzasını atan azərbaycanlılar torpaqlarını erməni işğalı altında qoymayacaqdı ki... Lakin bunun zamanı çatmalı idi, buna hazır olmalı idik. Olduq da. 2020-ci ildə Ali Baş Komandanın ətrafında birləşən xalq müzəffər sərkərdənin rəhbərliyi ilə torpaqlarımızı bir-bir azad etdi. Üçrəngli bayrağımız azad ellərə sancıldı. Düşmən qovulub torpaqlarımızdan çıxarıldı. Hadrut da azadlığına qovuşdu. Bu xəbər hadrutluların sevincinə, xoşbəxtcəsinə nəfəs almasına səbəb oldu.

Hələ müharibə bitməmişdi, dövlətimizin başçısının tapşırığına əsasən artıq azad edilmiş ərazilərdə bərpa işlərinə start verilmişdi. Hadrut müharibənin ilk ongünlüyündə azad edildiyi üçün burada da müəyyən işlərə başlanılmışdı.

Bu gün isə Hadruta yeni həyat bəxş olunur. Hadrut hadrutluların doğma yurdlarına qayıtmaları üçün hazırlanır. Ötən il mayın 5-də dövlətimizin başçısı cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd rayonuna səfərləri çərçivəsində gördüklərimiz bunları söyləməyə imkan verir.

### Hadrut qəsəbəsində 360 şagird yerlik məktəb tikilir

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunmuş rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncam və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Hadrutda məktəb binasının tikintisi də bu işlərin tərkib hissəsidir.

Bərpa olunacaq məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək. Məktəbin 2025-ci ildə istifadəyə veriləcəyi gözlənilir.

### 28 fərdi evdən ibarət ilk yaşayış məhəlləsi

Azad torpaqlarımıza sakinlərin qayıtması üçün ilkin olaraq evlərin tikilməsi, lazımi şəraitin yaradılması vacib amillərdəndir. Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdıran tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev deyirdi: "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq".

Dövlətimizin başçısı və birinci xanım Hadrut qəsəbəsində salınacaq ilk yaşayış məhəlləsinin təməlini qoyarkən bu dəyərli fikirləri xatırladıq və həqiqətən də Prezidentimizin nəyi nə zaman, nə vaxt edəcəyini müəyyənləşdirdiyinin bir daha şahidi olduq. Hadruta qayıtmaq üçün hadrutlular üçün salınan məhəllə də artıq qısa zamanda bu arzuların reallaşacağını göstərir.

İlk yaşayış məhəlləsi 28 fərdi evdən ibarət olacaq. Tikiləcək evlərin ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olması nəzərdə tutulur. Mənzillərin sahəsi 70-120 kvadratmetr təşkil edəcək. Qeyd edək ki, Hadrut qəsəbəsində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin tikintisi "PMD Group" MMC tərəfindən aparılır.

***Ardı Səh. 12***

# Azad torpaqlarımız:
## Hadruta yeni həyat gəlir...

Əvvəli səh. 11

### Hadrutda turizmin inkişafı nəzərdə tutulur

Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq.

Xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarla qəbir daşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb.

Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi də nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək. Turizm Məlumat Mərkəzi iki hissədən ibarət olacaq. Birinci hissə turistlərin qəbulu sahəsi, ikinci hissə isə turizm işçiləri üçün ofis kimi nəzərdə tutulur.






### Hadrut bir mərkəzdən idarə olunacaq

Hadrut qəsəbəsində həm də inzibati mərkəz tikilir. İnzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir ki, bu da Hadrut qəsəbə sakinlərinin yaranacaq hər hansı bir probleminin vaxt itirmədən həllinə xidmət edəcək. Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq.

### Şükürbəyli-Cəbrayıl-Hadrutdan 20-yə yaxın yaşayış məntəqəsinə şaxələnən yollar

Torpaqlarımız kimi, onları bir-biri ilə birləşdirən yollar da 30 ilə yaxın idi ki, doğmalarının addım səslərini gözləyirdi. Dağıdılmış, məhv edilmiş cığırları, itmiş yolları yenidən doğmalarını ocaqlarına daşımaq üçün darıxmışdı sanki...

Yol mədəniyyətdir. Hər hansı yerin inkişafını göstərən birinci amil, başlıca infrastrukturdur. 2023-cü ildə mayın 5-də dövlətimizin başçısının açılışında iştirak etdiyi Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsi də bölgə üçün xüsusi əhəmiyyətə malikdir. Bu yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunub. Uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb.

Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla, həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.



### 2021-ci ildə təməli qoyuldu, 2023-cü ildə istifadəyə verildi

"Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 9-da-Hadrutun işğaldan azad olunduğu gün Prezident İlham Əliyev tərəfindən qoyulmuşdu, ötən il mayın 5-də isə dövlətimizin başçısının iştirakı ilə istifadəyə verildi.

"Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyaları arasında yaradılan 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan 35/0,4 kV-luq 2x1600 kVA gücündə yeni "Hadrut" qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək.

Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Zərurət yaranarsa, "Hadrut" qovşaq yarımstansiyası vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq.

İşğaldan azad edilmiş ərazilərdə Yaşıl enerji mənbələrinin (işlək günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib edilib, həm personalın, həm də gələcəkdə fəal istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub.

### Hadrut yeni həyatın astanasında

Bütün bunları seyr etdikcə ürəyimiz dağa dönür. Hansı ki, ürəyimizə 30 il dağ çəkilmişdi. Düşmən ərazilərimizdə daşı daş üstündə qoymamışdı. Tariximizin, mədəniyyətimizin məhvi üçün min bir oyuna, xəyanətə əl atmışdı. Bu baxımdan azad edilən torpaqlarımızın hər birində gördüklərimizi böyük sevinc və xoşbəxtliklə qarşılayırıq. Yeni həyatın astanasında olan Hadrut kimi...

Budur, Hadrutun üzü gülür. Onu azad edən ordunun müzəffər sərkərdəsi bu gün də qədim yurd yerinin bərpasını, yaxın gələcəkdə sakinlərinin ona qovuşmasını təmin edir.

Baxdıqca qürur duyuruq. Qürur duyuruq ki, torpağımızın hər bir qarışını sevən, qoruyan, əzizləyən dövlət başçımız var. Axı biz bu torpaqları 90-cı illərdə satanları da görmüşdük. Prezidentimiz onların səhvini düzəltməklə yanaşı, həm də bu xalqın nümayəndələrini öz doğma ocaqlarına qovuşdurmağa çalışır. Bu işlər asan işlər deyil. Böyük zəhmətin, məsuliyyətin, bacarıq və qabiliyyətin, bir də Vətən sevgisinin bəhrəsidir. Bax, qüruru da məhz buna görə duyuruq.

***Mətanət Məmmədova***

# “Onlar Azərbaycan-ABŞ əlaqələrini zədələmək üçün çalışır”



“ABŞ Konqresinin Ermənistan üzrə qrupu Azərbaycan-ABŞ arasında əlaqələrini zədələmək üçün çalışır və rəsmi Vaşinqtonda bu mövqeni Bakıya qarşı istifadə etmək cəhdləri aşkar şəkildə müşahidə olunur. ABŞ-nin Azərbaycana qarşı təzyiqləri onun Bakı-İrəvan sülh proqramında uyğun nöqtələr taparaq Rusiyaya qarşı strateji imkanları genişlətmək məqsədlərinin bir hissəsidir. Bu baxımdan ABŞ Konqresinin Erməni Problemləri Qrupu Vaşinqtonun əlində Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi məsələsinə təzyiq rıçaqına çevrilib”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib.

Onun sözlərinə görə, konqresmenlərin erməni qrupuna dəstək məqsədilə fəaliyyətlərinin isə iki əsas hədəfi var: ”Birincisi, Konqresin Ermənistan Qrupu ABŞ-Ermənistan münasibətlərinin saxlanması və möhkəmləndirilməsinə həsr olunmuş qeyri-rəsmi qrupdur. Bu qrup indi öz fəaliyyətini davamlı etmək üçün müxtəlif vasitələr axtarır, çünki Azərbaycanın İrəvan üzərində hərtərəfli qələbəsindən sonra həmin qrupun da statusu kölgə altına düşür. 1995-ci ildə yaradılan bu qrup o zamanın regional şərtləri və terminologiyasını əsas götürür. Bu gün isə Cənubi Qafqazda reallıqlar qrupun manevrini əhəmiyyətli şəkildə məhdudlaşdırır - istər terminoloji, istərsə də regiona təsirlər baxımından”.Aqşin Kərimov sözlərinə belə davam edib:

”İkincisi, ABŞ Dövlət Departamenti hakimiyyətin icraedici qanadını təmsil etsə də, o, Azərbaycan-ABŞ münasibətlərinin normalarının Konqres tərəfindən müəyyən edilə biləcəyi görüntülərini yaradır. Bu mənada konqresmenlərlə Dövlət Departamentinin koordinasiyalı fəaliyyət göstərdiyi şübhə doğurmamalıdır. Yəni nəticə olaraq Vaşinqton erməni qrupu üzərindən xarici siyasət üzrə fəaliyyətinin Azərbaycan vektorunu kritik bir məqam kimi istifadəyə çalışır. Lakin ABŞ Administrasiyasında Azərbaycanın Mərkəzi Asiyaya keçiddə mühüm rol oynadığını başa düşən beyinlər də mövcuddur. Bu, ABŞ-nin Azərbaycanla münasibətlərdə nəyin işlədiyini düşünmək və əlaqələri Bakının irəli sürdüyü strateji təşəbbüslərə uyğunlaşdırmaq şansları verir.Vaşinqton bundan sonra Azərbaycanla əlaqələrdəki strateji tərəfdaşlıq və energetika sahəsindəki dərinlikləri və genişliyi vurğulayan siyasi xətti yürütməlidir. Əks təqdirdə, Azərbaycan ABŞ ilə münasibətlərin rəsmi şəkildə yenidən nəzərdən keçirilməsini özündə birləşdirən addımlar atmaq hüququndan istifadə edəcək”.

***Ayşən Vəli***

# Bu il magistratura imtahanları necə olacaq?

## *TƏHSİL EKSPERTİ AÇIQLADI*



”Magistratura imtahanlarının formatında baş verən dəyişikliklər, xüsusilə də imtahanın yalnız bir mərhələdən ibarət olması və ixtisas imtahanlarının ləğvi, tələbələrin akademik bacarıqlarını qiymətləndirmə mexanizmini daha dar bir istiqamətə yönəldir. İndi imtahan məntiq, informatika və xarici dildən ibarətdir. Bu dəyişikliyin həm müsbət, həm də mənfi cəhətləri vardır və təhsilin keyfiyyətinə olan təsiri müxtəlif aspektlərdən təhlil edilə bilər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Kamran Əsədov sözlərinə belə davam edib: ”Bir tərəfdən, bu sadələşdirilmiş model tələbələrin yalnız fundamental biliklərini yoxlamağa yönəlir. Məntiq imtahanı tələbənin düşünmə qabiliyyətini və analiz etmə bacarığını ölçür ki, bu da təhsil sisteminin tələbələrdən gözlədiyi əsas keyfiyyətlərdən biridir. İnformatika imtahanı isə müasir dövrün əsas texnoloji tələblərinə cavab verir, xüsusilə də rəqəmsal dünyada tədqiqatlar və analizlər aparmağın əhəmiyyəti getdikcə artır. Xarici dil imtahanı isə beynəlxalq elmi mübadilədə və xaricdə təhsildə mühüm rol oynayır, çünki tələbələr üçün dil bilikləri elmi fəaliyyətin və karyera imkanlarının genişləndirilməsində vacibdir.



Digər tərəfdən, ixtisas imtahanlarının ləğvi müəyyən çətinliklər yarada bilər. Bir çox tələbə üçün magistratura pilləsi ixtisaslarını dərinləşdirmək üçün bir fürsətdir və imtahanın yalnız ümumi fənlərə fokuslanması ixtisasla bağlı xüsusi biliklərin qiymətləndirilməsini arxa plana atır. Bu, tələbənin seçdiyi ixtisasa dair dərin bilikləri və hazırlığı olmadığı halda belə magistraturaya qəbul olunmasına yol aça bilər. Nəticədə, bu dəyişiklik bəzi hallarda magistraturaya daxil olan tələbələrin ixtisas üzrə yetərli hazırlığı olmadığını göstərə bilər.

Məntiq imtahanına gəlincə, o, tələbənin analiz etmə, problem həll etmə və sürətli düşünmə bacarıqlarını ölçsə də, bəzən bu tiplə bağlı suallar müəyyən düşüncə tərzini üstün tutur. Yəni bu, hər tələbənin güclü olduğu bir sahə deyil. İnformatika isə çox tələbənin yaxşı bildiyi sahə olmasına baxmayaraq, texnoloji biliklərdən daha çox nəzəriyyə ilə məhdudlaşması bəzi tələbələr üçün çətinliklər yarada bilər.

Təhsilə töhfə baxımından, bu dəyişikliklərin nəticəsi müxtəlif olacaq. Əgər tələbələr bu imtahan mərhələsində yaxşı nəticə göstərirsə, onların magistratura təhsilinə başlaması daha asan olacaq. Amma ixtisas imtahanlarının olmaması, tələbələrin dərindən ixtisaslaşmasına mane ola bilər və bu da ölkənin elmi və praktiki kadr potensialına mənfi təsir göstərə bilər.

Bu sistemi təkmilləşdirmək üçün dünya təcrübəsinə nəzər salmaq faydalı ola bilər. Məsələn, bəzi ölkələrdə tələbələr həm ümumi biliklər, həm də ixtisas üzrə imtahan verirlər ki, bu da balanslı bir yanaşma təmin edir. Azərbaycanda da imtahanın balanslı olması üçün əlavə mərhələlər, məsələn, fərdi müsahibələr və ya ixtisas yönümlü kiçik testlər tətbiq oluna bilər. Bu, tələbələrin həm ümumi bacarıqlarını, həm də ixtisas biliklərini əhatə edən daha geniş qiymətləndirmə modeli yaradar.

Nəticə etibarilə, magistratura imtahanlarının hazırkı modeli müəyyən dərəcədə tələbələrin bacarıqlarını ölçsə də, ixtisas üzrə biliklərin yoxlanılmaması akademik prosesin keyfiyyətinə mənfi təsir göstərə bilər. Sistem, tələbələrin seçdiyi sahədə dərin biliyə malik olmalarını təmin etmək üçün daha çox yönlü bir qiymətləndirmə metoduna doğru inkişaf etdirilməlidir”.

***Ayşən Vəli***

# Əli Kərimlinin anti-Azərbaycan dairələrlə ortaq gizlinləri...

**Böyük rus ədibi Fyodor Dosteyevski yazırdı ki, burnunun ucundan uzağı görə bilməyən realizm ən ağılsız fantastikadan da təhlükəlidir. Bu müdrik kəlamlar sanki AXCP sədrinin boyuna biçilib**



Bir neçə gündür ki, ölkəmizdəki radikal müxalifətin qulbeçələri-Avropada və ABŞ-da ”siyasi mühacir” adı ilə sığınacaq tapan, Azərbaycan əleyhdarı olan qüvvələrin, eləcə də bəzi xarici dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının toruna düşənlər ölkəmizə qarşı əsassız iddiaları və qərəzli ittihamları ilə özlərini gündən-günə ifşa edirlər.

Okeanın o tayından ermənipərəst dairələrin, erməni lobbisinin təsiri altında olan fondların sifarişi ilə respublikamıza qarşı şər atan, böhtan yağdıran, kimliyi hamımıza yaxşı bəlli olan Sevinc Osmanqızının məskunlaşdığı ölkənin məşhur filosof və pedaqoqu Con Dyuin belə yazırdı: ”Mənəviyyat aptekdə və ya kulinariyada istifadə olunan reseptlər kimi yazılı şəkildə təqdim edilmir”.

Məşhur filosofun fikirlərini təsadüfi xatırlamadıq. COP29 ərəfəsində Azərbaycana qarşı ermənipərəst dairələrlə ”sapı özümüzdən olan baltalar”ın qarayaxma kampaniyasının tezislərinə diqqət yetirəndə bütün bunların eyni mərkəzdən idarə olunan koordinasiyalı fəaliyyət olduğu açıq-aşkar görünür. AXCP sədri Əli Kərimlinin, onun qolbəyiləri olan Fuad Qəhrəmanlının, Ayaz Məhərrəmlinin, eləcə də ”Milli Şura” adlı amorf qurumun rəhbəri Cəmil Həsənlinin və onların xarici ölkələrdəki ”siyasi mühacir” kod adlı emissarlarının son vaxtlar media və sosial şəbəkələrdə antimilli fəallıqlarının artması dediklərimizi bir daha sübut edir.

Məlum marginal dəstənin erməni lobbisinin nəzarətində olan media vasitələrində ölkəmizin əleyhinə yönəlmiş informasiya hücumunu məhz ”qoca qitə”dəki, eləcə də okeanın o tayındakı ermənipərəst siyasətçilərin sifarişi və pulu ilə gücləndiriblər. Ə.Kərimlinin özünün sosial şəbəkə statusunda ABŞ-ın bəzi ermənipərəst konqresmen və senatorlarının ölkəmizi əsassız ittiham etmələrinə haqq qazandırması Azərbaycanın beynəlxalq aləmdə imicinin ləkələnməsinə hesablanmış ən çirkin metodun əyani göstəricisidir. Həmin konqresmenlər hazırda ölkəmizdə həbsdə olan Qarabağdakı separatçı terrorçuların əliqanlı, cinayətkar dəstəbaşılarının azad edilməsini istəyirlər. Ə.Kərimli də o konqresmenləri müdafiə edir. AXCP sədri həmin çızmaqarasında erməni lobbisinin maliyyə dəstəyini alan ABŞ-də prezidentliyə namizəd Kamala Harrisi müdafiə edir. Həmin Kamala Harris bir müddət əvvəl belə deyirdi: ”Dağlıq Qarabağ erməniləri” Qarabağa qayıtmalıdır, Azərbaycan bu qayıdışa təminat verməlidir. Buyurun bu da Ə.Kərimlinin xisləti. Daha nə deyəsən?..

Təsadüfi deyil ki, küçə təfəkkürü təfəkkürü ilə düşünən xəyanətkar siyasətbaz öz ”təhlilləri” ilə daim ikrah hədəfinə çevrilir. Onu da yaxşı bilirik ki, burnunun ucundan uzağı görə bilməyən, şəxsi ambisiyalarının köləsinə çevrilən bu zat həmişə xaricdəki himayədarlarının dirijor çubuğu ilə hərəkət edib. Böyük rus ədibi Fyodor Dosteyevski hələ XIX əsrdə yazırdı ki, burnunun ucundan uzağı görə bilməyən realizm ən ağılsız fantastikadan da təhlükəlidir. Bu müdrik kəlamlar sanki Ə.Kərimlinin boyuna biçilib.

Əvvəllər də yazmışdıq ki, mayası xəyanətlə, satqınlıqla, pozuculuqla yoğrulmuş bu siyasətbazlar, onların beş-üç nəfər əlaltıları, trolları sosial şəbəkələrdə saxta profillərlə dövlətimizə, dövlətçiliyimizə, ayrı-ayrı şəxslərə şər-böhtan, təhqir yağdırmaqla, özlərini ifşa etməklə yanaşı, erməni dəyirmanına su tökdüklərini və anti-Azərbaycan dairələrin bir nömrəli qulluqçusu olduqlarını açıq-aşkar ortaya qoyurlar. Nə yaxşı ki, Vətən sevgisindən, Qarabağ Zəfərindən mənəvi güc alan, yüksək müşahidə qabiliyyətinə malik olan vətəndaşlarımız bu satılmış vətənşüvənlərin, saxta ”demokratların” antimmilli fəaliyyətlərini hər addımda ifşa edirlər. Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan bu qaragüruhçuların ölkəmizin əleyhinə apardıqları çirkin təbliğat xalq-iqtidar birliyinin, qırx dörd günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin sarsılmaz qayasına çırpılaraq darmadağın olur. Cəmiyyətimiz belə düşmən qüvvələrin, antimilli ünsürlərin, Vətən əxlaqını itirənlərin çirkli niyyətlərinə yaxşı bələd olduğundan onların bütün məkrli planlarının pozulmasına həmişə böyük dəstək verir.

Belə də olmalıdır. Müstəqil Azərbaycanımızı, dövlətçiliyimizi, onun rəmzlərini qorumaq hər birimizin vətəndaşlıq borcudur. Bunun üçün heç də jurnalist, politoloq olmağa ehtiyac yoxdur. XIX əsrdə Rusiyada məşhur ”Sovremennik” jurnalının redaktoru, şair Nikolay Nekrasov deyirdi: ”Sən şair olmaya bilərsən, fəqət, vətəndaş olmağa borclusan!”

***Zahid Rza***

BAXIŞ BUCAĞI

# Neft bazarı qaynayır

## Yanacaq qiymətlərində yeni hədlər müəyyənləşir

Yaxın Şərqdəki münaqişənin artıq qismən neft qiymətlərinə təsir etdiyi bəlli olub. Faktı artıq bir neçə iri istehlakçı ölkə etiraf etməli olub. Lakin bazar yenə də eskalasiyaya sərt reaksiya verib: keçən həftənin sonunda Brent kotirovkaları bir barel üçün 79 dollardan yuxarı qalxıb. Yeni qiymət artımı ABŞ prezidenti Cozef Baydenin Vaşinqtonun İsrailin İranın neft obyektlərinə mümkün hücumunu müzakirə etdiyini etiraf etməsi səbəbindən baş verib. Mütəxəssislər dərhal bu halda neftin nə qədər başa gələcəyini hesablamaq üçün yarışırlar: bir barel üçün 100, 150, 200 dollar. Bu, həm OPEC+-da birləşən ən böyük təchizatçıların, həm də Ştatlarda şist nefti istehsalçılarının tələblərini ödəməkdən daha çox olardı. Ancaq belə bir artı eyni zamanda mənfi olacaq. Bazar balansının pozulması, qlobal enerji böhranı ilə doludur.



Sentyabrda Rusiyanın Urals neftinin bir barelinin orta hesabla təxminən 63 dollara başa gəldiyi açıqlanıb. Avqust ayı ilə müqayisədə o, təxminən 10% itirib: bir ay əvvəl bu çeşidin orta qiymət səviyyəsi bir barel üçün 70 dolları ötüb. Bununla belə, birincisi, Rusiya neftinin qiymətləri hələ də Qərb ölkələri tərəfindən müəyyən edilmiş tavandan yüksək olub, xüsusən də Rusiya Asiyanı Uralsdan - ESPO-dan daha bahalı qiymətlərlə təmin edir. İkincisi, əgər konkret olaraq Uralsdan və oktyabrın ilk günlərindəki vəziyyətdən danışsaq, o zaman Reuters analitiklərinin hesablamalarına görə, o, indi bir barel üçün 65 dollardan bahalaşıb. Brent etalon markası üçün, ticarət məlumatlarına görə, keçən həftə bir barel üçün təxminən 78 dollar başa çatıb. Üstəlik, cümə günü müəyyən anlarda kotirovkalar bir barel üçün 79 dollar səviyyəsini keçib.

Neft bazarı Yaxın Şərq münaqişəsinin daha da genişlənməsi xəbərləri fonunda sözün əsl mənasında qaynayır. ABŞ prezidenti Cozef Bayden atəşə yağ töküb. Oktyabrın 3-də jurnalistlərlə ünsiyyətlərindən birində Vaşinqtonun İsrailin İrandakı neft obyektlərinə zərbə endirməsinə dəstək olub-olmayacağı ilə bağlı suala cavab olaraq Bayden bu mövzunun müzakirə edildiyini bildirib. ABŞ Ağ Evinin rəsmi saytında bu cür nitqin stenoqramı dərc olunub. Bununla belə, Bayden ənənəvi qaydada, sonra bir az yersiz cavab verib. "Düşünürəm... Məncə, bir az olardı... Hər halda," fikrini tamamlamadan deyib. Ertəsi gün mətbuat brifinqi zamanı bir az daha məlumatlı cavablar verilib. Bayden jurnalistlərə deyib ki, o, İsrailin İrana qarşı necə cavab tədbirləri görəcəyi ilə bağlı hələ yekun qərar verməmişdir.



Bütün bu açıqlamaları nəzərə alan Qərb analitikləri İsrailin İranın neft obyektlərinə hipotetik hücumu zamanı Brent markalı neftin qiymətinin nə qədər sıçrayacağını hesablamağa tələsiblər. Məsələn, Goldman Sachs hesab edir ki, gələn il Brent neftinin qiyməti 100 dollar/barelə qədər qalxa bilər. Fitch analitikləri Yaxın Şərqdə genişmiqyaslı müharibənin baş verəcəyi təqdirdə Brent markalı neftin qiymətinin "barel üçün 100 dollardan yuxarı qalxacağını" və potensial olaraq hətta 150 dollar/barelə çatacağını bildirib. Bir barel üçün 150 dollar olan yerdə o, başqa, daha da ekstremal proqnozdan çox da uzaq deyil - 200 dollar/barel. İsveçin SEB bankının əmtəə analitiklərindən biri bu qiymətləndirmələri Amerikanın CNBC telekanalında verib.

Əgər münaqişə İranın Hörmüz boğazını bağlayacağı təqdirdə neft qiymətlərində belə güclü sıçrayış gözlənilir. Həqiqətən də, analitiklərin izah etdiyi kimi, eskalasiyanın ən pis ssenarilərindən biri İranın "hər gün dünya neft tədarükünün beşdə birinin keçdiyi" Hörmüz boğazını bağlamasıdır. BCS World of Investments şirkətinin eksperti Lyudmila Rokotyanskaya da qeyd edib ki, "Regiondakı digər iki dar boğaz Süveyş kanalı və Bab əl-Məndeb boğazıdır".

Beynəlxalq Valyuta Fondunun təxminlərinə əsasən, 150-200 dollar/barel səviyyəsi OPEC+-a daxil olan ən böyük tədarükçülərin ehtiyaclarını tam ödəyə bilər. ABŞ-ın şist nefti istehsalçıları da bundan faydalanacaqlar. Bloomberg analitiklərinin əvvəllər bildirdiyi kimi, ABŞ-ın şist sənayesi bütün yataqlarda, o cümlədən bahalı yataqlarda hasilatın xüsusiyyətlərini nəzərə alaraq, bir barel üçün ən azı 86 dollar qiymət səviyyəsini tələb edir. Bu gəlirlilik təxmini artmışdır. Bu arada, təxminən 7-10 gün əvvəl Qərb mətbuatında təkrar-təkrar, deyək ki, neftin qiymətinin yaxın gələcəkdə çökə biləcəyi barədə xəbərlər dərc olunub. Qeyd edilənlər Səudiyyə Ərəbistanının iddia edilən öz nişini qazanmaq istəyi idi - çox yüksək qiymətlər də daxil olmaqla istənilən neft qiymətində mövcud olmaq hüququna malik olan dempinqlə bağlı versiya.

Amerikanın "Wall Street Journal" nəşri mənbələrə istinadən xəbər verir ki, Səudiyyə Ərəbistanı nümayəndələri kifayət qədər kobud şəkildə digər istehsalçılara xəbərdarlıq ediblər ki, onlar razılaşdırılmış hasilatın azaldılmasına əməl etməsələr, neftin qiyməti 50 dollar/barelə düşəcək. Aydınlaşdırıldığı kimi, bu bəyanat digər dövlətlərin razılaşmalara əməl etmədiyi təqdirdə krallığın həqiqətən qiymət müharibəsinə başlamağa hazır olduğuna dair üstüörtülü təhlükə kimi qəbul edilib. Lakin sonra OPEK bu məlumatı təkzib edib: "Anonim mənbələrə bağlı şübhəli bəyanatların etibarlılığı yoxdur və tamamilə uydurmadır". Bundan əlavə, ötən həftə keçirilən OPEC+ monitorinq görüşündə avqust və sentyabr ayları üzrə razılaşmanın yüksək səviyyədə icra olunduğu qeyd edilib.

Müəyyən səbəblərdən neft hasilatı üzrə öhdəliklərini yerinə yetirməyən ölkələr dünya bazarlarına həddən artıq çıxarılan həcmlərə görə kompensasiya cədvəllərini təqdim ediblər. Və tədricən bu cədvəllər azalma istiqamətində kompensasiya ediləcək. Bundan əlavə, OPEC+ nazirlərinin monitorinq komitəsi neft hasilatının azaldılması üzrə sazişin cari parametrlərinə sadiqliyini təsdiqləyib. Növbəti iclas dekabrın 1-nə təyin edilib. Bir tərəfdən bazar Yaxın Şərqdəki vəziyyətə kifayət qədər kəskin reaksiya verib. Lakin digər tərəfdən, bu, olacaq tərəddüd deyil. Çünki bütövlükdə Yaxın Şərqdəki münaqişənin özü artıq qismən qiymətə daxil edilib. OPEC+-nın əlaqələndirilmiş hərəkətləri olmasaydı, neft qiymətlərində ciddi disbalans yaranardı və bu, qlobal enerji böhranına səbəb olardı.

VEB İnstitutunun analitiklərinin dərc etdiyi proqnoza əsasən, Yaxın Şərqdə münaqişənin kəskinləşməsindən əvvəl də olsa, gələcəkdə, 2030-cu ilə qədər OPEC+ üzvü olan ölkələr çox güman ki, tələb və təklif balansı kimi aktiv siyasət yürütməyə davam edəcəklər.. VEB İnstitutu aydınlaşdırıb ki, Brent neftinin qiymətləri yaxın üç-dörd il ərzində bir barel üçün 80-90 dollar diapazonunda dəyişəcək, real olaraq nisbətən sabit qalacaq. Məhz bu əlamətdar yer, görünür, indi hədəf kimi qəbul edilir.

**V.VƏLİYEV**

FELYETON



# Bəlkə, bəlkə, bəlkə...

Hərdən işıqforun altında tək-tənha dayanıram. Elə bu səbəbdən də düşünməyə vaxt çox olur. Əksər adam ötür, keçir, qaçır, maşınların arasından ilan kimi sürünüb o başa çatır. Maşınlar da sağ olsunlar, düz keçid xəttinin üzərində dayanır. Sanki burada dayanmaq qadağan deyilmiş kimi...

Lap tək qalanda isə, düzü, bir az xəcalət də çəkirəm. Düşünürəm ki, kənardan baxanlar birdən məni anormal hesab edər. Deyərlər ki, bunun başı xarab olub görəsən, bir neçə dəqiqədir ki, durub burada yaşıl işığı gözləyir. Ona görə də başımı aşağı salıram ki, heç kimin mənə rişxəndlə baxdığını da görməyim.

Hələ o gün lap utandım. İşıqforda dayanmışam. Beş-altı gənc qız da yaxınlaşdı. Bir az durdular orada. Onlardan biri:

-Ay qızlar, niyə dayanmısınız, maşın yoxdur ki, keçin də.

Qızlar da düşdü onun ardınca, getdilər. Hələ arada dönüb mənə də baxdılar. Sanki demək istədilər ki, başın xarab olub, niyə dalımızca gəlmirsən?..

Mən də gözlədim, yaşıl işıq yandı, sonra keçdim. Keçmək deyəndə də, yaşıda elə bilirsiniz yol bizim olur? Yolumuzu tutan maşınların arasından ora-bura vurnuxmaqdan adamın başı gicəllənir. Lakin di gəl, gör, maşının sürücüsünün bu, vecinədir ki, axı mən bu adamın yolunu niyə kəsmişəm? Üstəlik musiqiyə də o qədər səs verirlər ki, yaxınlaşdıqca, deyirsən bəlkə bu dəqiqə üzərinə top atılacaq.

Nə etməli, bizim şəhərdə işıqfor mədəniyyəti belədir də. Bir gün deyil, iki gün deyil, gərək öyrəşəsən, əlac yoxdur.

Bir də, bu işıqfor məsələsi bir az da fərasət istəyir. Bir də baxırsan ki, camaat qırmızı işıqda kütləvi şəkildə yolun ortasındadır, o tərəfdən də maşınlar elə sürətlə gəlir, deyirsən bəlkə işıq sürətidir. Belə olanda ağ xətt üzərində bir qaçaqaç düşür, gəl, görəsən. Maşınlar siqnallayır. Kənardan qulaq verən olsa, deyər bəlkə toydur, gəlin köçür.

Lakin nə toy, nə gəlin. Təzə xəbərdir niyə? Bu şəhərdə hər saniyə toydur, yollardan hər an gəlin karvanı keçir. Maşınlar siqnallayır, ağız deyəni qulaq eşitmir, camaat bir-birinə qarışır, ora-bura qaçır. Baxdıqca düşünürsən ki, vallah, bu sürücüləri də, işıqfora məhkum olunan insanları da Allah qoruyur. İlahi bir qoruma olmasa, hər gün neçə-neçə maşın neçə-neçə insanın sonu ola bilər.

Bəzən də düşünməli olursan ki, indi ki bu işıqforlara məhəl qoyan yoxdur, onlar nə üçün saxlanılır? Lakin tezcə də bu fikirdən vaz keçirsən. Çünki işıqforlar yol hərəkəti qaydalarına müvafiq olaraq yerində olmalıdır. Bəlkə nə vaxtsa ya bizim uşaqlar, ya uşaqlarımızın uşaqları, onlar da olmasa, onların uşaqları bu işıqfora riayət edərlər. Sürücülər işıqforun xətti üzərində dayanıb yolu keçilməz etməzlər. Bəlkə nə vaxtsa bu şəhərin bəzi insanları işıqfor haqında müəyyən biliyə sahib olar, o qızlar kimi "maşın yoxdur, keçin də" deməz, işıqforda təkcə dayanan adamı başı xarab hesab etməzlər. Bəlkə bir gün bu işıqforun məhz insanların sağlamlığı, rahatlığı və təhlükəsizliyi naminə qoyulduğu anlaşılar.

İnşallah, bəlkə bu gün olmayanlar sabah olar?..

**Mətanət Məmmədova**

# Milan Lazoviç: ”Azərbaycan Qərbin təzyiqlərinə tabe olmur, öz siyasətini yeridir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*





***Rusiya Beynəlxalq Əlaqələr Şurasının proqram koordinatoru Milan Lazoviç Azərbaycan-Amerika münasibətləri, eləcə də Ermənistanda müxalifətin yeni etiraz dalğası barədə ”Moskva-Baku” portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Azərbaycan prezidenti İlham Əliyev bu günlərdə yenidən ABŞ-ı çox sərt tənqid edib. Dövlət başçısı bildirib ki, 60 konqresmen Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü bərpa etdiyinə görə ona qarşı sanksiyaların tətbiq edilməsini təklif edib. Prezidentin sözlərinə görə, bunun arxasında Dövlət Departamenti dayanır. Azərbaycan öz suverenliyini bərpa etdikdən sonra ABŞ-ın Bakını tənqid etməsi müntəzəm və getdikcə amansız xarakter aldı. ABŞ-ın Azərbaycana qarşı həmişə ikili siyasət aparmasının səbəbi nədir?***

- İlham Əliyevin belə sərt reaksiyası bir sıra amillərlə əlaqələndirilir. Birincisi, Azərbaycanın reaksiya verməyə məcbur olmasıdır. Dövlət başçısı ABŞ-ın tamamilə əsassız tənqidlərə cavab verib. O, artıq ABŞ tərəfindən ”klişelərə” çevrilmiş, qəsdən media məkanına atılan bu bəyanatlara cavab verir. İkinci məqam dünyada dəyişən geosiyasi vəziyyətlə bağlıdır. Azərbaycan üçün tamamilə aydındır ki, ABŞ-ın hegemon olduğu birqütblü dünya artıq dözülməzdir. Azərbaycan Respublikası isə güclü, konstruktiv, uzaqgörən dövlət kimi gələcəyin çoxqütblü dünyada olduğunu görür və BRİKS, ŞƏT kimi beynəlxalq birliklərə yaxınlaşır, şərq və ”qlobal cənub” ölkələri ilə əlaqələri inkişaf etdirir. Azərbaycan çoxqütblü dünyaya yönəlib və bunu hər cür nümayiş etdirir. Bu, ABŞ-ın siyasətinə uyğun gəlmir. Ona görə də Bakının Vaşinqtonla münasibətlərində ciddi fikir ayrılıqları var.

Üçüncü amil Azərbaycanın ötən il öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsidir. ABŞ-da bir çox insan bu faktdan xoşhal deyil. Baxmayaraq ki, Qarabağ Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisidir. Birləşmiş Ştatlar bunu rəsmən tanıyır, lakin ştatlarda Ermənistanı və Qarabağın ”müstəqilliyi” ideyasını dəstəkləyən kifayət qədər ciddi qüvvələr var. Və bu qüvvələr Vaşinqtonun siyasətinə özlərinə lazım olan istiqamətdə təsir göstərməyə çalışırlar və Bakı bunu çox gözəl başa düşür.

Dördüncü amil odur ki, Azərbaycan Qərbin Bakının fikrinə tamamilə məhəl qoymayaraq, öz ”məhləsində” təxribatlar təşkil edilməsinə göz yuma bilməz. Bu, Ermənistan-Azərbaycan sərhədində Aİ-nin mülki missiyası deyilən, əslində isə NATO-nun kəşfiyyat missiyasının yerləşdirilməsi deməkdir. ABŞ və Aİ-nin Ermənistana maliyyə axınını, respublikada təhlükəsizliyi və həyatın müxtəlif sahələrini nəzarətə götürməsi Azərbaycanı qane edə bilməz. Azərbaycan prezidentinin sərt və ədalətli reaksiyası da bu amillərlə bağlıdır. Həqiqətən də, Azərbaycan rəhbərinin qeyd etdiyi kimi, təhlil etsək, ABŞ-ın siyasəti həmişə ikitərəfli olub.

Ötən gün Kəmalə Harris Ermənistanı və ermənilərin Qarabağa qayıtmasını dəstəkləyib. Bu, noyabrda ABŞ-da keçiriləcək prezident seçkilərində erməni diasporundan daha çox səs toplamaq məqsədi daşıyan ritorikadır. Eyni zamanda, Harrisin bəyanatı ABŞ-da Ermənistanı dəstəkləyən və reallığı təhrif edərək Qarabağ erməniləri mövzusunu manipulyasiya etməyə çalışan bəzi siyasi qüvvələrin mövqeyini əks etdirir. Hamıya məlumdur ki, Azərbaycan ən yüksək səviyyədə Qarabağ ermənilərinin Qarabağda qala biləcəyini və onlara Azərbaycan vətəndaşlarının bütün hüquqlarının təmin ediləcəyini bəyan edib. Amma erməni əhalisi könüllü olaraq Qarabağı tərk etmək qərarına gəlib. İndi də bundan Azərbaycana qarşı dost olmayan qüvvələr tərəfindən təzyiq aləti kimi istifadə olunur.

***- ABŞ-ı bu qədər açıq və səmimi tənqid etməyə hər dövlətin cəsarəti çatmır. Azərbaycan bunu etməkdən niyə qorxmur, real sanksiyalardan qaçmaq üçün hansı təhlükəsizlik yastığı var?***

- Azərbaycan bu vəziyyətə yenidən dəyişən dünya nöqteyi-nəzərindən qiymətləndirmə ilə yanaşır. Azərbaycan Respublikasının Rusiya ilə əla münasibətləri var. Dediyim kimi, qlobal Cənubi, Şərq ölkələri ilə, həqiqətən də konstruktiv qarşılıqlı fəaliyyətə hazır olan ölkələrlə əməkdaşlıq inkişaf edir. Bakı çox gözəl başa düşür ki, sanksiyaların tətbiqi və bəzi məhdudlaşdırıcı tədbirlərdən sonra Azərbaycanın işləməsi üçün kimlərsə var. Bəli, potensial sanksiyalar müəyyən ziyana səbəb olacaq, lakin bu, Bakı üçün bir növ fəlakət olmayacaq. Nümunə kimi uzun illərdir ki, sanksiyalar altında yaşayan və hələ də beynəlxalq arenada tərəfdaşları olan Rusiyanı götürə bilərik. İnanıram ki, Bakı da öhdəsindən gələr. Onun üçün milli maraqları müdafiə etmək daha vacibdir, nəinki kiminsə ona nə edəcəyini diktə etməsi. Azərbaycan həqiqətən müstəqil siyasət aparan dövlətdir. Onun beynəlxalq aləmdəki statusu yalnız bundan irəli gəlir.

Yeri gəlmişkən, indi Azərbaycan Fransanın müntəzəm anti-Azərbaycan siyasətinə sözdə deyil, əməldə də cavab verir. Azərbaycan bu gün Fransanın müstəmləkəçiliyinə qarşı mübarizədə liderlərdən birinə çevrilib və Fransa Respublikası tərəfindən hüquqları pozulmuş və pozulmaqda olan xalqlara kömək etməklə bu mövzuda çox fəal iştirak edir. Kiçik görünən bir dövlətin Fransanın xalqların hüquqlarını pozması problemi ilə məşğul olması Azərbaycan Respublikasının regional oyunçu çərçivəsindən kənara çıxdığını göstərir.

Bu, Bakının gələcəyə yönəlmiş xarici siyasət gündəliyinin məntiqi davamıdır, Azərbaycan daha ədalətli dünyaya ehtiyac görür. Və bu, dünya ictimaiyyətinə Qərb mərkəzli dünyanın ədalətsiz olduğunu nümayiş etdirir, çünki o, zəif xalqların zülmü üzərində qurulub. Və bu ədalətsizliyə qarşı durmağa hazır olduğunu göstərir. Birləşmiş Ştatlar mövzusuna qayıdaraq, Azərbaycan nəhayət gələcəkdə Şimali Amerika hindularının gündəmini zəbt etsə, təəccüblənmərəm.

***- İlham Əliyevin bu açıqlamaları ötən həftə Rusiyanın Xarici Kəşfiyyat Xidməti və FSB rəhbərlərinin Qərblə bağlı səsləndirdiyi bəyanatlarla çox üst-üstə düşür. Belə ki, Federal Təhlükəsizlik Xidmətinin rəhbəri bildirib ki, Qərb Aİ-nin Ermənistandakı missiyasını NATO missiyasına çevirməyə çalışır ki, bu da Ermənistanı Azərbaycanla sülh prosesini gecikdirməyə meyllələndirir. Xarici Kəşfiyyat Xidmətinin rəhbəri bəyan edib ki, Rusiya və Azərbaycan xüsusi xidmət orqanları ABŞ-ın rusiyalı diplomata qarşı təxribatının qarşısını alıb...***

- Bizim Qərbin Cənubi Qafqaz və onun hüdudlarından kənarda siyasəti ilə bağlı qiymətləndirmələrimiz həqiqətən də oxşardır. Rusiya və Azərbaycan regionun işlərinə kənardan müdaxilənin əleyhinədir. Moskva və Bakının fikrincə, regional məsələlərin həlli üçün 3+3 formatı (Azərbaycan, Ermənistan, Gürcüstan + Rusiya, Türkiyə, İran) mövcuddur.

Müəyyən Qərb dövlətləri, xüsusən də ABŞ və Fransa Ermənistandan tramplin kimi istifadə edərək, bölgədə, o cümlədən hərbi cəhətdən möhkəmlənmək, öz hərbi kontingentlərini göndərmək, baza açmaq istəyirlər. Vaxtilə Qərb Gürcüstanı özünün regional tramplininə çevirməyə çalışırdı, indi isə bunun əks prosesinin getdiyini görürük. Tbilisi tədricən Qərbdən uzaqlaşır. Ermənistan isə Qərblə əməkdaşlığa arxalanır, bəlkə də bunun ölkə üçün fəlakətli nəticələr verəcəyini tam dərk etmir. Qərb Ermənistandan Rusiya, Azərbaycan və digər region ölkələrinə təsir rıçaqı kimi istifadə etmək istəyir.

***- Qərbin təxribatı nəticəsində Azərbaycanla Ermənistan arasında yeni müharibə mümkündürmü?***

- Yəqin ki, yox. Belə bir ssenarinin baş verməməsi üçün həm Rusiya, həm də Azərbaycan çox səy göstərir. Bundan başqa, Bakı ilə İrəvan arasında sülh sazişi üzrə danışıqlar aparılır. Bəli, ləng gedir, amma proses hələ də davam edir. Ona görə də yaxın gələcəkdə müharibənin mümkünlüyünü düşünmürəm. Baxmayaraq ki, Fransa Ermənistanı silahlandırmağa çalışır.

***- Arxiyepiskop Baqrat Qalstanyanın başçılıq etdiyi Ermənistan müxalifəti Paşinyanı devirmək cəhdinin uğursuzluğa düçar olmasından sonra yenidən etiraz aksiyalarına başlayıb. Düzdür, müxalifət hərəkatının mübarizə taktikasını dəyişdiyi hələ ki, bəlli deyil. Sülh prosesi mövzusundan eyni qaydada istifadə davam edir, guya Ermənistan hakimiyyəti Ermənistanı satır, Qarabağda qisas mövzusundan hələ də istifadə olunur...***

- Müxalifətin Nikol Paşinyanı devirmək kimi arzuladığı məqsədə nail olacağı və ya Qarabağla bağlı nəyəsə nail olacağı ehtimalı azdır. Üstəlik, indiyə qədər bunu edə bilməyiblərsə görünür, müxalifət yayda özünü ciddi şəkildə yenidən formatlaşdıra bilməyib. Bəyanatlar hələ də eynidir, əhalidən ciddi dəstək yoxdur. Bundan başqa, Paşinyana Qərbdən güclü dəstək var. Hakimiyyətə gəlişindən bəri dəfələrlə ”siyasi meyit” elan edilib. Biz Ermənistanda onun istefası tələbi ilə çoxsaylı etiraz dalğalarının şahidi olmuşuq. Amma son nəticədə müxalifət müxtəlif liderlərin rəhbərliyi altında (amma etiraf etmək lazımdır ki, eyni proqramla) heç vaxt bu məqsədinə nail ola bilmədi. Bu dəfə də inanıram ki, heç nə alınmayacaq.

Üstəlik, obyektiv olaraq, Paşinyan Azərbaycanla sülh danışıqları prosesinə rəhbərlik edən Ermənistanın lideridir; Yəni bu və ya digər dərəcədə danışıqlar prosesinin nəticələri var.

Bəli, Ermənistanda əhalinin bir hissəsi müxalifətin mövqeyini bölüşür. Amma Qarabağ məsələsi artıq qapalı məsələdir. Respublikada əhalinin bir hissəsi tədricən dərk edir ki, Qarabağ məsələsinin həlli ilə Azərbaycan və Türkiyə ilə münasibətlərin tədricən qurulması ilə ölkə üçün blokadaya son qoymaq, iqtisadi əlaqələr qurmaq üçün yaxşı imkanlar açılacaqdır. Və bu, adi insanların həyatını yaxşılaşdıracaq.

***- Bakı Ermənistanla sülh sazişinin imzalanmasının əsas şərtini Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasını qoyur. Sizcə, Paşinyan bu addımı atacaqmı?***

- İrəvan, bildiyiniz kimi, 2027-ci ildə Konstitusiyaya dəyişikliklərlə bağlı referendum elan edib. Düşünürəm ki, Nikol Paşinyan sonda Azərbaycana qarşı ərazi iddialarını Konstitusiyadan çıxarmağa razı olacaq. Çünki bu, Bakının sülh müqaviləsi bağlamaq üçün qeyd-şərtsiz tələbidir. Bunsuz, çətin ki, bir şey alınsın. Düşünmürəm ki, Paşinyan və ya onun müttəfiqləri hansısa yolla Bakıya təsir göstərə bilsinlər ki, bu məsələ qaldırılsın, çünki bu, təməl daşıdır. Amma Konstitusiyanın dəyişdirilməsi ilə bağlı vəziyyət uzanacaq. Hazırda İrəvan əsas qanunu dəyişməyə hazır deyil. Hesab edirəm ki, Ermənistan hakimiyyətinin indi bu məsələ ilə bağlı qəbul etdiyi ”taym-aut” əhalini belə bir addıma hazırlamaq zərurəti ilə bağlıdır, çünki açıq-aydın görünür ki, mövcud revanşist əhval-ruhiyyəni nəzərə alsaq, müxalifət onları qızışdırmağa çalışır. Qarabağın Ermənistan Konstitusiyasından çıxarılması qeyri-populyar tədbirdir, təbii ki, bu, Ermənistanda çoxları arasında dəstək tapmır, ona görə də risk etməmək üçün hakimiyyət bu bir neçə il ərzində əhalini hazırlayacaq.

***Tərcümə- Elçin Bayramlıb***

SON SƏHİFƏ
SƏS
9 oktyabr
2024-cü il

# Avtobus sürücüləri işə götürülərkən hansı cəhətlər əsas götürülür?



“Avtobusların iş qrafikinə baxdıqda görə bilərik ki, avtobus qəzalarının artmasının səbəblərindən biri də nəqliyyatdan istifadə qaydalarının düzgün seçilməməsidir”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov deyib. Nəqliyyat eksperti bildirib ki, bu o deməkdir ki, nəqliyyat vasitələrini idarə edən şəxslər mütləqdir ki, qəzalardan sığortalanmalı, qaçmağı bacarmalıdır: ”Amma konkret olaraq bunu avtobuslara şamil etsək, avtobuslarda proses tam başqa cürdür. Onun mahiyyəti də tam başqadır. Yəni avtobus sürücüləri birmənalı olaraq seçilmiş, öz iş prinsiplərinə görə uyğun şəxslər olmalıdır. Misal üçün, məsuliyyətli, etik davranışları normal olan, səhhətində problem yaranmayan, ümumi olaraq insanlarla işləməyi bacaran, xoşniyyətli və bu kimi amilləri özündə ehtiva edən şəxslər olmalıdır.

Sərnişindaşımanın əsas ağırlığı bu gün Bakı metrosunun və marşurutların, qismən də taksilərin üzərinə düşür. Amma burada düzgün sürücünün seçilməsi, nəqliyyat vasitəsinin qüsursuz idarə olunması, avtobus sürücülərinin bu və digər formada nəzarətdə saxlanılması vacib atılan addımlardan, görüləcək işlərdən biridir. Əlelxüsus avtobus sürücüləri mütəmadi olaraq geniş tibbi müayinədən və narkoloji testdən keçirilməlidir.

Əsasən işə çıxan, buraxılış vərəqəsi alan şəxsin səhhətində olan vəziyyət, onun təzyiqinin ölçülməsi, müəyyən dərəcədə testlərdən, analizlərdən keçirilməsi mütləqdir ki, bu da yolda idarəetməyə sirayət edəcək. Eyni zamanda qanunvericiliklə sürücünün sürücülük vəsiqəsi və D kateqoriyası olmalıdır. Ümumiyyətlə, sözügedən şəxs ən azı 5 ildən yuxarı və 10 il müddətinə ağır və iri qabaritli, orta tutumlu nəqliyyat vasitələrini idarə etməlidir. Onun yaş məsələsinə gəldikdə isə, sürücünün yaşı 21-dən yuxarı olmalıdır.

Əlbəttə ki, bütün bu amillərin nəzərə alınması önəmli məsələlərdən biridir. Çünki insanların əksəriyyəti gündəlik olaraq ictimai nəqliyyatdan istifadə edirlər. Və onların sağlamlıq durumlarını heç bir vəchlə təhlükəyə atmaq olmaz. Xüsusilə, işə götürülən sürücülərin psixoloji vəziyyəti, səbrli, təmkinli, düzgün davranış qaydalarına bələd olması da mühümdür”.

*Söylü Ağazadə*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Fransız klubu “Beşiktaş” azarkeşlərinə qadağa qoydu!




***Futbol üzrə UEFA Avropa Liqasının Liqa mərhələsinin III turunda Türkiyənin ”Beşiktaş” klubunu qəbul edəcək Fransanın ”Lion” kollektivi qonaq komandanın azarkeşlərinin stadiona girişini qadağan edəcək. Belə ki, meydan sahibləri 7 il əvvəl baş vermiş insident və digər qayda pozuntularının təkrarlanmasının qarşısını almaq məqsədi ilə bu addımı atıb.***

2017-ci ildə Avropa Liqasının 1/4 final mərhələsinin ilk oyununda ”Lion”un ”Beşiktaş”ı qəbul etdiyi qarşılaşmada türkiyəli azarkeşlər tribunaların yuxarı mərtəbələrindən stadiona tərəf fişənglər atıblar. Bu səbəbdən matç başlamalı olduğu vaxtdan gec start götürüb.

## “Nar”ın dəstəyi ilə “Kudos” intellektual oyununun finalçıları mükafatlandırıldı

***Ən sərfəli mobil operator olması ilə yanaşı, sosial layihələrə də xüsusi diqqəti ilə seçilən ”Nar” böyük maraqla davam edənKudos intellektual-əyləncəli quiz oyunlarının 4-cü mövsümünün finalçılarının mükafatlandırılmasına dəstək olub. 300-ə yaxın komandanın iştirak etdiyi yarışmanın bu mövsümündə ”Nar” qalib olan komandaları təbrik edərək onlara xüsusi hədiyyələr təqdim edib.***




”Nar” ölkədə intellektual oyunları dəstəkləyərək gənclərin bilik və bacarıqlarının inkişafına xüsusi diqqət yetirir. Mobil operatorun korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biri təhsilin və intellektual fəaliyyətlərin təşviqi ilə cəmiyyətin intellektual potensialını gücləndirməkdir.”Nar”ın bu istiqamətdə həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən ”Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700